Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 19 (8042) CÜMƏ, 25 yanvar 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Davosdan İlham Əliyevə tam dəstək




İsveçrədə dünyanın aparıcı siyasətçilərinin, iş adamlarının, ekspertlərinin iştirakı ilə keçirilən 49-cu Davos İqtisadi Forumu bu gün başa çatır. Dövlət başçısı kimi ilk dəfə 2007-ci ilin yanvarında Davos Forumunda iştirak edən Prezident İlham Əliyev 2019-cu ildə 13-cü dəfə bu mötəbər toplantıya qatılmış oldu. Hələ 2016-cı ildə Dünya İqtisadi Forumunun icraçı sədri Klaus Şvab forumda onuncu dəfə iştirak etdiyinə görə Davos fəxri üzvlər klubunun nişanını Azərbaycan Prezidentinə təqdim etmişdi.

110 ölkədən 3 mindən çox iştirakçını bir araya gətirən budəfəki forum "Qloballaşma 4.0: 4-cü Sənaye İnqilabı dövründə yeni arxitekturanın yaradılması" devizi altında təşkil edilmişdi. Forumun proqramına aktual qlobal hadisələrə həsr olunan müzakirələr daxil edilmişdi. Forumda iştirak edən Azərbaycan Prezidenti bir çox beynəlxalq şirkət və dövlət, hökumət başçıları ilə görüşlər keçirdi, Rusiyanın "Rossiya 1" və Çinin CGTN televiziya kanallarına müsahibə də verdi və forum çərçivəsində "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" mövzusunda sessiyada iştirak etdi.

## Dünyanın ən nüfuzlu iqtisadi forumunda Azərbaycan Prezidentinin islahatlar konsepsiyası yüksək qiymətləndirildi

### Davos Forumu - ölkənin potensialının təqdim edilməsi üçün vacib platforma

1971-ci ildə isveçrəli professor Klaus Şvabın təşəbbüsü ilə yaradılan Davos İqtisadi Forumunun (DİF) hər il keçirilməsində əsas məqsəd dövlət və hökumət başçıları, beynəlxalq təşkilatlar, elm adamları, nüfuzlu siyasətçilər, iqtisadçılar, biznesmenlərin iştirakı ilə yeni beynəlxalq iqtisadi layihələrin həyata keçirilməsini müzakirə və təşkil etmək idi. 1979-cu ildən etibarən DİF-in mütəxəssisləri tərəfindən "Dövlətlərin qlobal rəqabətə davamlılığı" adlı məruzə hazırlanır. Bu məruzələrdə dünyanın 100-dən çox dövləti iki göstərici əsasında - potensial inkişaf və rəqabətədavamlılıq indeksi üzrə qiymətləndirilir.

Bu, yeganə forumdur ki, həm rəsmiləri, dünya liderlərini, həm də iş adamlarını, vətəndaş cəmiyyəti nümayəndələrini bir araya toplamaq imkanına malikdir. Bu baxımdan Davos Forumu müzakirələr, müxtəlif ölkələrdən investisiyaların cəlb edilməsi üçün və ölkənin özünün potensialının təqdim edilməsi baxımından olduqca vacib platformadır.

İlham Əliyev Davos İqtisadi Forumunun arzuolunan prezidentlərindən biridir. Dövlət başçısı ən vacib müzakirələrdə hər zaman məruzəçi kimi çıxış edir. Onun dünyada gedən siyasi və iqtisadi proseslərə münasibəti ciddi marağa səbəb olur. Azərbaycan bu mötəbər forumda yaxından iştirak edərək təcrübə, imkanlar mübadiləsini ortaya qoymaqla dünyadakı mövcud problemlərin aradan qaldırılmasına töhfəsini verir.

Diqqət çəkən əsas məqamlardan biri də budur ki, öz tarixi fəaliyyəti dövründə bu mötəbər tədbir yalnız iki dəfə Davosdan kənarda təşkil edilib. Böyük qürur hissi doğuran hal ondan ibarətdir ki, bu dünyəvi forum ABŞ-dan başqa yalnız Azərbaycanda - Bakı şəhərində keçirilib. 2013-cü ildə "Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyinə dair strateji dialoq" mövzusunda keçirilmiş Dünya İqtisadi Forumu bu dünyəvi qurum tərəfindən ölkəmizin iqtisadi inkişafında qazanılmış uğurlara verilən yüksək tarixi bir dəyər kimi də qiymətləndirilməlidir.

Ardı 4-cü səh.

# Aqrar sektorun modernləşməsinə mühüm töhfə



Yanvarın 24-də Prezident İlham Əliyev Bakının Sabunçu rayonunun Pirşağı qəsəbəsində Kənd Təsərrüfatı Nazirliyinin əsaslı şəkildə yenidən qurulan Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun və "Kartof və tərəvəz toxumları istehsalı" kompleksinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, kənd təsərrüfatı naziri İnam Kərimov görülən işlər barədə dövlət başçısına məlumat verdi.

Bildirildi ki, ərazidə inzibati-laboratoriya binası, yeməkxana, toxum saxlanma anbarı, toxum emalı məntəqəsi, toxum təmizləmə sexi, istixanalar kompleksi, toxum satış mərkəzi yaradılıb. Burada ümumilikdə, 16 hektar sahədə tikinti, abadlıq və yaşıllaşdırma işləri görülüb.

Prezident İlham Əliyev institutun binasının rəmzi açılışını bildirən lenti kəsdi.

İnstitutun laboratoriyalarında ən müasir cihaz və avadanlıqlar quraşdırılıb. Bu avadanlıqlar torpaq, su, pestisid, virus, azot-protein, nişasta və bir sıra digər analizlərin həyata keçirilməsinə imkan verir. Burada həmçinin virussuz kartof toxumçuluğunun müasir səviyyədə təşkili üçün biotexnologiya laboratoriyası da qurulub.

Qeyd edək ki, bu institut Azərbaycan SSR Nazirlər Sovetinin 1965-ci il 6 may tarixli qərarına əsasən tərəvəz, bostan və kartof bitkilərinin seleksiyası, toxumçuluğu, aqrotexnikası, bitki mühafizə tədbirlərinin işlənib hazırlanması və həyata keçirilməsi məqsədilə yaradılıb. "Toxumçuluğun inkişaf etdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 iyul tarixli Sərəncamının icrası ilə əlaqədar olaraq bu toxumçuluq kompleksi inşa olunub.

Prezident İlham Əliyevə Elektron kənd təsərrüfatı layihəsi barədə məlumat verildi.

Qeyd olundu ki, bu layihənin məqsədi kənd təsərrüfatı fəaliyyətlərinin elektronlaşdırılmasını, məlumatların elektron qaydada tərtib edilərək araşdırılmasını təşkil etməkdən ibarətdir. Sistem kənd təsərrüfatı fəaliyyətləri istiqamətində məlumatları toplamaq, təhlil etmək, bu sistemin istifadəçilərinin məlumatlandırılmasını təmin etmək üçün xüsusi modulları özündə cəmləşdirir. İnstitut və onun tabeli qurumları - Lənkəran, Qusarçay, Tovuz bölgə zona təcrübə stansiyaları, Şəmkir dayaq məntəqəsi və Abşeron yardımçı təcrübə təsərrüfatı tərəfindən tərəvəz sortlarının ilkin toxumçuluğunun elmi əsaslarla işlənib hazırlanması, superelit və elit toxum istehsalına elmi-metodiki kömək göstərilməsi, müxtəlif çeşidli tərəvəz növlərinin emal texnologiyasının öyrənilməsi, elmi nailiyyətlərin və qabaqcıl təcrübənin istehsalatda tətbiqinə metodiki rəhbərlik həyata keçirilir. İstixana və açıq sahə şəraitində tərəvəz, bostan və kartof bitkilərinin yeni sort və hibridlərinin yaradılması, onların toxumçuluğunun standartlara uyğun təşkili nəzərdə tutulur.

Ardı 2-ci səh.

## Tofiq Tağızadənin 100 illik yubileyinin keçirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

2019-cu ilin fevral ayında Azərbaycanın görkəmli kinorejissoru, əməkdar incəsənət xadimi, xalq artisti Tofiq Mehdiqulu oğlu Tağızadənin anadan olmasının 100 illiyi tamam olur.

Tofiq Tağızadə dünya kinematoqrafiyasının mütərəqqi təcrübəsindən yaradıcı şəkildə bəhrələnərək nadir istedada malik rejissor kimi özünəməxsus dəst-xətti ilə Azərbaycan kino sənətinə mühüm yeniliklər gətirmiş və mədəniyyət tariximizdə dərin iz qoymuşdur. Sənətkarın yüksək estetik meyarlarla xalqımızın mədəni, mənəvi irsini canlandıran və müasirlərin həyatını dolğun əks etdirən rəngarəng mövzulu silsilə ekran əsərləri, o cümlədən "Uzaq sahillərdə", "Arşın mal alan", "Yeddi oğul istərəm" və "Dədə Qorqud" filmləri Azərbaycan kinosunun qızıl fonduna daxil olmuş parlaq sənət nümunələridir. Tofiq Tağızadənin respublikada kino işinin təşkili və kadr hazırlığı sahəsində də təqdirəlayiq xidmətləri vardır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qazandığı nailiyyətlərlə ölkə kinematoqrafiyasının daha da zənginləşməsi işinə dəyərli töhfələr vermiş xalq artisti Tofiq Tağızadənin anadan olmasının 100-cü ildönümünün layiqincə qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının təkliflərini nəzərə almaqla, xalq artisti Tofiq Tağızadənin 100 illik yubileyi ilə əlaqədar tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 yanvar 2019-cu il*

# 102 qəsəbə, 55 min mənzil

## Və 300 min məcburi köçkünə Prezident dəstəyi

**Ötən illər ərzində Azərbaycanda qeydə alınan dinamik sosial-iqtisadi inkişaf hər bir ölkə vətəndaşının, o cümlədən məcburi köçkünlərin həyat səviyyəsinin yüksəlməsində də özünü qabarıq şəkildə büruzə verib.**

Son 18 il ərzində qaçqın və məcburi köçkünlər üçün respublikanın 30-dan artıq şəhər və rayonunda bütün sosial-texniki infrastruktura malik 102 müasir qəsəbə salınıb ki, bunun da 3-ü ötən il istifadəyə verilib.

Üzləşdikləri mənzil-məişət problemlərinin uğurlu həlli fonunda məcburi köçkünlər Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət sayəsində doğma yurd yerlərinə qayıdacaqları günün də uzaqda olmadığını yaxşı bilirlər.

### Sosial məsələlərin həlli ön plandadır



Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyünün tezliklə həllinin təmin edilməsinə, əslində, hər bir azərbaycanlı indi çox əmindir. Çünki kifayət qədər güclənən Azərbaycan dövləti və xalqı əzəli, tarixi torpağının daha düşmən tapdağı altında qalmasına dözmək niyyətində deyil. Azərbaycan bütün dünya tərəfindən tanınan öz ərazi bütövlüyünü sülh yolu ilə bərpa etmək imkanları tükənmədiyindən Ermənistanla danışıqlar prosesini davam etdirir. Bu, istənilən nəticəni verməsə, onda ordumuz qısa müddətdə zəbt edilmiş ərazilərdən düşməni süpürüb atacaq.

Buna qədər isə dövlət məcburi köçkünlərin problemlərinin həlli istiqamətində zəruri tədbirlər görməkdə davam edir. Abşeron rayonunun ərazisində məcburi köçkün ailələri üçün salınmış yeni yaşayış kompleksinin istifadəyə verilməsi mərasimində bu məsələyə toxunan Prezident İlham Əliyev qeyd edib: *"Son illərdə məcburi köçkünlərin problemlərinin həlli işində çox böyük addımlar atılmışdır. Üç yüz minə yaxın köçkün yeni mənzillərlə, fərdi evlərlə təmin edilib. Bu məqsədlər üçün dövlət çox böyük vəsait xərcləyib və bu da təbiidir. Çünki mən həmişə demişəm ki, məcburi köçkünlərin problemləri sosial məsələlər arasında ön plandadır"*.

Ardı 4-cü səh.

## Avetik ÇƏLƏBYAN: "Paşinyan İlham Əliyevlə görüşmək üçün fürsət axtarırdı və görüşə qaça-qaça getdi"

### Ermənistanda belə hesab edirlər ki, Qarabağ danışıqları məhz Azərbaycan Prezidentinin maraqlarına uyğun aparılır

Cənab İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyanın Davos Dünya İqtisadi Forumu çərçivəsində qeyri-rəsmi görüşü baş tutub. Düşənbə və Sankt-Peterburqda MDB zirvə toplantısı çərçivəsində baş tutmuş qeyri-rəsmi görüşlərin davamı kimi qiymətləndirilən bu ünsiyyət Dünya İqtisadi Forumunun prezidenti Borge Brendenin təşəbbüsü ilə keçirilib. Müəyyən parametrlər baxımından həmin görüşlər sonuncu da daxil olmaqla, vacib əhəmiyyət kəsb edir.

Ekspertlərə görə, baş tutan bu danışıqlar tərəflərin Qarabağ münaqişəsinin nizamlanmasına dair mövqeyinin müəyyən edilməsi və prosesin fəallaşdırılması baxımından faydalı sayıla bilər. Burada diqqət həm də ilk növbədə ona yönəldilir ki, belə görüşlər Azərbaycanın danışıqlar prosesində şərtlərinin qəbul olunduğunu aydın göstərir. Söhbət ondan gedir ki, məhz belə görüşlər münaqişə tərəflərinin Azərbaycan və Ermənistan olduğunu təsdiq edir. Bununla da Qarabağ separatçılarının danışıqlarda tərəf kimi qəbul edilməsi ilə bağlı Ermənistanın niyyətlərinin üzərindən xətt çəkilir.

Hazırda danışıqlar prosesi Ermənistan və Azərbaycan xarici işlər nazirləri səviyyəsində aparılır. Belə ki, bu il yanvarın 16-da Parisdə, 2018-ci il dekabrın 3-də isə Milanda Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin görüşü keçirilib.

Ardı 7-ci səh.

# Aqrar sektorun modernləşməsinə mühüm töhfə

*Əvvəli 1-ci səh.*










Hazırda burada 158 nəfər çalışır ki, onlardan da 17-si elmi işçi, 2-si elmlər doktoru, 15-i isə fəlsəfə doktorudur. Kompleksə daxil olan toxum emalı məntəqələrində respublikada ilk dəfə tərəvəz toxumlarının müasir avadanlıqlarla emal olunması və paketlənməsi nəzərdə tutulub.

İnstitutun ərazisində 30 hektar açıq sahədə, 6,14 hektarda isə istixana şəraitində tərəvəz və kartof bitkilərinin toxumçuluq sisteminin təşkili məqsədilə kompleks inşa olunub.

Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə kənd təsərrüfatının, aqrar sahənin inkişafı istiqamətində mühüm işlər görülür. Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun yenidən qurulması, "Kartof və tərəvəz toxumları istehsalı" kompleksinin yaradılması da bu istiqamətdə icra olunan layihələrdən biridir. Belə müasir kompleksin yaradılması ölkəmizdə yüksək keyfiyyətli məhsuldar bitki sortlarının toxumlarına olan ehtiyacı ödəmək, toxumluq məhsulların istehsalını artırmaq baxımından mühüm rola malikdir. Müxtəlif bitki sortlarının toxumlarının istehsalı və saxlanılması üzrə bu cür ixtisaslaşmış müəssisələrin yaradılması qeyri-neft sektorunun mühüm sahələrindən olan kənd təsərrüfatının inkişafında da böyük əhəmiyyət daşıyır. Bundan başqa, belə tədbirlər həm də idxaldan asılılığı azaltmaqla, ölkəmizin ixrac potensialının artırılmasına, ərzaq təhlükəsizliyinin yüksək səviyyədə təmin olunmasına da töhfə verir.

Prezident İlham Əliyevə Aqrar İnkişaf Könüllüləri layihəsinin məqsədi barədə də məlumat verildi.

Diqqətə çatdırıldı ki, bu layihənin həyata keçirilməsində məqsəd aqrar sektorun inkişafına ictimai dəstək göstərmək, aqrar sahədə könüllü cəmiyyəti formalaşdırmaqdır. Bununla da, gələcəkdə bu sahədə fəaliyyət göstərəcək ixtisaslaşmış kadrların yaranmasına təkan vermək, innovativ texnologiyaların təbliği ilə bu sahənin dayanıqlı inkişafına nail olmaqdır.

Sonra dövlət başçısı Aqrar İnkişaf Könüllülərinin bir qrupu ilə görüşdü.

Könüllü **Sarvan CƏBRAYILZADƏ** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Sizi aqrar inkişaf könüllüləri adından salamlayırıq. Hərəkatımız aqrar sahədə inkişafa dəstək məqsədi daşıyır. Biz artıq 35 regionda təşkilatlana bilmişik. Biz dörd aydır ki, fəaliyyətə başlamışıq. Bu qısa müddətə baxmayaraq, sıralarımıza 600 gənci cəlb edə bilmişik. Üç il ərzində 10 mindən çox gənci öz sıralarımıza cəlb etməyi nəzərdə tutmuşuq. Bizim könüllülərimiz Dövlət Aqrar İnkişaf Mərkəzlərində (DAİM) fəaliyyət göstərirlər. DAİM-lərdə biz fermerlərin yanında oluruq, onlara dəstək veririk, eyni zamanda, özümüz də aqrar sahədə təcrübə qazanırıq. Əminik ki, Sizin xeyir-duanızla, dəstəyinizlə biz daha böyük nailiyyətlərə çata bilərik. Biz könüllülər olaraq həm də fəal maarifləndirmə işi aparırıq. Könüllülərimiz regionlarda fermerlərə aparılan islahatların mahiyyəti barədə məlumat verirlər. Nəticədə fermerlərimiz bu islahatlarla tanış olurlar. Həmçinin könüllülərimiz aqrar sahədə müəyyən təcrübə qazanırlar.

* * *

**Könüllü Rübabə YUSİFOVA** dedi:

- Möhtərəm cənab Prezident, aqrar inkişaf könüllüləri aqrar təşəbbüsləri dəstəkləyirlər. Dövlətimizin biz gənclərə hədəflənən layihələri var. Könüllülərimizi bu layihələrdə iştirak etməyə çağırırıq. Bilirik ki, könüllülük fəaliyyəti bizim mütəxəssis kimi formalaşmağımıza kömək edəcək. Hədəflərimiz bəllidir. Regionlarda gənclər arasında məşğulluğu artırmaq istəyirik. Bilirik ki, könüllülük hərəkatına xüsusi dəstək verirsiniz. Göstərdiyiniz bu diqqət biz könüllüləri daha fəal çalışmağa sövq edir. Bu diqqətə görə könüllülər adından Sizə dərin təşəkkürümüzü bildiririk.

* * *

Prezident **İlham ƏLİYEV** çıxış edərək dedi:

- Çox sağ olun, mən sizi ürəkdən salamlayıram. Çox şadam ki, Azərbaycanda Aqrar İnkişaf Könüllüləri hərəkatı başlayır. Əminəm ki, bu hərəkatın çox böyük gələcəyi olacaq. Ümumiyyətlə, Azərbaycanda könüllülərin sayı artır və bu, çox sevindirici haldır. Bildiyiniz kimi, Azərbaycanda könüllülər hərəkatı "ASAN xidmət" mərkəzlərində başlamışdır və çox geniş vüsət almışdır. Bu günə qədər minlərlə könüllü "ASAN xidmət"də fəaliyyət göstərmiş və indi müxtəlif vəzifələrdə uğurla çalışır. Könüllülər bizə, eyni zamanda, mötəbər beynəlxalq tədbirlərin keçirilməsində yardımçı olublar, xüsusilə Avropa Oyunlarında, İslam Həmrəyliyi Oyunlarında. Bu oyunların hazırlanmasında və keçirilməsində könüllülərin çox böyük zəhməti, payı olub. Bildiyiniz kimi, mən onların hər birini fəxri diplomlarla təltif etmişəm. Bu gün aqrar sahədə də könüllülər öz sözünü deməyə başlayır. Mən bu təşəbbüsü çox alqışlayıram. Çünki bölgələrdə yaşayan gənclər bu işlərə qoşularaq aqrar sahədə böyük uğurlara nail ola bilərlər.

Aqrar sahə bizim üçün strateji sahədir. Bu, həm iqtisadi, həm sosial sahədir. Əhalimizin 47 faizi bölgələrdə yaşayır. Ona görə son illərdə kənd təsərrüfatının, regionların sosial-iqtisadi inkişafına göstərilən diqqət məhz bu məqsədi güdür ki, həm məşğulluq, həm məhsuldarlıq artsın və Azərbaycan həm öz daxili tələbatını, həm də ixrac edilən məhsulları ən yüksək səviyyəyə qaldırsın.

Bu gün biz Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun açılışında bu məsələləri önə çəkmişik. Bu gün biz bu gözəl müəssisənin timsalında aqrar sahədə aparılan işləri görürük. Çünki bu institut 1960-cı illərdə yaradılmışdır və demək olar ki, son illərdə fəaliyyət göstərmirdi, bura dağınıq bir yer idi. 2016-cı ildə bu institutun müasir səviyyədə qurulması üçün müvafiq sərəncam imzalanmışdır, işlər başlamışdır və indi 30 hektar ərazidə ən müasir mərkəz yaradılıbdır - istixanalar, institutun gözəl binası, laboratoriyalar. Bu institutun fəaliyyəti çox böyük əhəmiyyət daşıyır. Çünki ilk dəfə olaraq Azərbaycanda toxumçuluq istixanaları yaradılır. Hazırda bizdə istixanaların sayı çoxdur və indi tərəvəzçiliyə böyük maraq var. Toxumçuluq istixanalarının yaradılması isə ancaq bu gündən başlayır və bu mərkəz ölkəmizin hər bir bölgəsinə dəstək olacaq.









Tərəvəzçilik bizim kənd təsərrüfatının ənənəvi sahəsidir, böyük gəlir gətirən sahədir. Yəqin siz bilirsiniz ki, kənd təsərrüfatı məhsulları arasında bizə ən çox gəlir gətirən pomidor ixracıdır. Fermerlər bu işlə böyük həvəslə məşğuldurlar və digər tərəvəzlərin yetişdirilməsi çox sürətlə gedir. Biz ildənilə istehsalı artırırıq. Bu institutun fəaliyyəti məhsuldarlığı böyük dərəcədə artıracaq, eyni zamanda, xaricə gedən valyutanın qarşısını müəyyən qədər alacaq. Çünki bu gün bütün toxumlar xaricdən gətirilir və onların alınmasına böyük məbləğdə vəsait gedir. Bundan sonra toxumların əhəmiyyətli hissəsi ölkəmizdə yetişdiriləcək, beləliklə, valyuta gətirəcək, məşğulluq, məhsuldarlıq artacaq və biz özümüzü bundan sonra tam təmin etməklə xarici bazarlara daha böyük ixrac imkanlarımızla çıxacağıq. Məqsədimiz bundan ibarətdir. Ölkə iqtisadiyyatının şaxələndirilməsi, qeyri-neft sektorunun, aqrar sahənin inkişafı gündəlikdə duran əsas məsələlərdən biridir. Bu sahədə, sənaye sahəsində də müsbət meyillər var. Bildiyiniz kimi, bu yaxınlarda Sumqayıtda karbamid zavodu açılmışdır. Bu, qeyri-neft sektorunda həyata keçirilən ən böyük layihədir. Biz özümüzü azot gübrələri ilə tam təmin edəcəyik. Eyni zamanda, təqribən 150-160 milyon dollar dəyərində məhsul ixrac edəcəyik. Azərbaycanda pivot suvarma sistemləri, pestisidlər zavodları fəaliyyət göstərir. Yəni, sənaye istehsalı da kənd təsərrüfatını dəstəkləyir, ona lazımi şərait yaradır. Əlbəttə, sizin kimi gənclərin bu işlərdə fəal iştirakı hesab edirəm ki, uğurun əsas şərti, əsas amili olacaq.

Mən çox şadam ki, Azərbaycan gəncləri aqrar sahəyə çox böyük maraq göstərirlər. Bu, Azərbaycanda doğrudan da bir yenilikdir. Əvvəllər hesab olunurdu ki, aqrar sahə o qədər də cəlbedici, o qədər də maraqlı deyil, hətta hesab olunurdu ki, o qədər də gəlir gətirən sahə deyil. Ancaq baxır sən buna necə yanaşırsan. Əgər dövlət kənd təsərrüfatına dəstək verirsə, həm gəliri olacaq, həm maraqlı olacaq, həm də ki, özünü innovasiyalarla təmin edəcək.

Azərbaycanda kənd təsərrüfatının inkişafına çox böyük dövlət dəstəyi var - subsidiyalar verilir, fermerlər torpaq vergisi istisna olmaqla bütün vergilərdən azaddırlar. Texnikalar alınır, güzəştli şərtlərlə kreditlər verilir. Hazırda kənd təsərrüfatında böyük islahatlar aparılır, subsidiyaların verilməsi mexanizmi təkmilləşir, fermerlər üçün daha aydın, daha rahat mexanizm tətbiq olunur.

İnstitutun binasında mənə Elektron Kənd Təsərrüfatı layihəsi təqdim edilmişdir. Yəni, fermerlər üçün tam yeni şərait yaradılır və beləliklə, kənd təsərrüfatı çox cəlbedici sahə olacaq. Azərbaycan vətəndaşları görəndə ki, sizin kimi savadlı, bilikli gənclər bu sahəyə maraq göstərirlər, əminəm ki, maraq daha da böyük olacaq.

Mən çox şadam ki, bu gün sizinlə birlikdə bu gözəl institutun yenidənqurmadan sonra açılışında iştirak edirik. Onu da bildirməliyəm ki, hazırda Kənd Təsərrüfatı Nazirliyində və digər dövlət qurumlarında struktur islahatları aparılır. Bu islahatların bir məqsədi var ki, biz işimizi daha da yüksək səviyyədə quraq. Onu da bildirməliyəm ki, mövcud strukturlarda, ixtisar olunan strukturlarda çalışan vətəndaşlar işlə təmin olunacaqlar. Kənd təsərrüfatında heç bir ixtisar gözlənilmir və digər strukturlara da tapşırılıb ki, islahatlar ixtisarlara gətirib çıxarmasın. Yəni, o müəssisələrdə, o xidmətlərdə, agentliklərdə çalışan vətəndaşlar bilsinlər ki, onların məşğulluğu daim diqqət mərkəzindədir.

Sizi bir daha salamlayıram, təbrik edirəm. Siz Azərbaycanın müxtəlif bölgələrində işləyəcəksiniz və ümumi işimizə öz töhfənizi verəcəksiniz. Sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

# *Prezident İlham ƏLİYEV:* "Bizim atdığımız bütün addımlar sosial xarakter daşıyır və sosial ədaləti tərənnüm edir"

"Bizim atdığımız bütün addımlar sosial xarakter daşıyır və sosial ədaləti tərənnüm edir. Çünki yaxşı yaşayan vətəndaşlar dövlətə daha çox töhfə verməlidir, daha çox vergi ödəməlidir, daha çox kommunal xərcləri olmalıdır. Ancaq aztəminatlı təbəqə, orta təbəqə dövlət tərəfindən qorunmalıdır və qorunur. Bu, sosial ədalət prinsipidir. Biz bu yolla gedirik. Biz bazar iqtisadiyyatı prinsipi əsasında yaşayırıq, eyni zamanda, vətəndaşların sosial təminatı da daim diqqət mərkəzindədir. Beləliklə, biz həm sosial məsələlərin həlli, həm də iqtisadi inkişaf ilə bağlı siyasətimizi gələn illərdə də davam etdirəcəyik".




AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 77-ci kitabında yer alan bu fikirləri dövlət başçısı 2016-cı il dekabrın 2-də Zərdab Mərkəzi Rayon Xəstəxanasında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanışlığı zamanı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə deyib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2016-cı ilin noyabr ayından dekabradək olan dövrü əhatə edir.

Kitaba Prezident İlham Əliyevin Azərbaycana səfər etmiş Belarus Respublikasının Prezidenti və İsrail Dövlətinin Baş naziri ilə apardığı danışıqlar, habelə imzalanan sənədlər barədə informasiyalar, dövlət və hökumət başçılarının mətbuata bəyanatlarının mətnləri daxil edilib. Nəşrdə həmçinin Prezident İlham Əliyevin "Qafqazda dini tolerantlıq ənənələri və Azərbaycanın multikulturalizm modeli" mövzusunda Bakıda keçirilən beynəlxalq konfransda iştirak edən bir qrup din xadimini, Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibini, ABŞ və Böyük Britaniyanın yüksəkvəzifəli nümayəndə heyətlərini qəbul etməsi barədə materiallar yer alıb.

Oxucular bu kitabda ölkə rəhbərinin Füzuli, Tərtər və Ağdam rayonlarına səfərləri zamanı 2016-cı ilin aprelində Ermənistan silahlı qüvvələrinin cəbhənin təmas xəttində törətdikləri təxribatlar nəticəsində ziyan dəymiş evlərin tikintisi və bərpası ilə tanışlığı, xəstəxanalara gedərək aprel döyüşlərində yaralanmış əsgərlərə baş çəkməsi, həmçinin bölgələrdə iqtisadi və sosial infrastruktur, mədəniyyət obyektlərinin, təhsil müəssisələrinin yeni binalarının açılışlarında iştirakı, ictimaiyyət nümayəndələri ilə görüşləri barədə materiallarla tanış ola bilərlər.

Kitabda dövlət başçısının "Teatr və multikulturalizm" mövzusunda keçirilən IV Bakı Beynəlxalq Teatr Konfransının, "Bakutel-2016" XXII Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgisi və konfransının iştirakçılarına müraciətlərinin, Dünya Xəbər Agentliklərinin V Konqresinin, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının XVI Baş Assambleyasının birgə açılışı mərasimindəki nitqinin mətnləri də toplanıb.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 77-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Azərbaycan cəmiyyəti dağıdıcı müxalifəti qəbul etmir

Dağıdıcı müxalifət yenə mitinq həvəsinə düşüb. Baxmayaraq ki, hazırda bu cür aksiyaların keçirilməsi üçün cəmiyyətdə hansısa səbəb yoxdur. O cümlədən, seçkilər dönəmi deyil. Əksinə, ölkədə sox mühüm iqtisadi və struktur islahatları həyata keçirilir. Bu günlərdə Prezident İlham Əliyevin Davosda keçirdiyi görüşlər Azərbaycanın artan beynəlxalq nüfuzunun təsdiqi oldu.

Əvvəllər də səbəbsiz-filansız ən müxtəlif hoqqalarla küçələrə çıxmaq istəyən, meydan eyforiyası ilə yaşayan dağıdıcı müxalifət yenə də öz mövcudluğunu göstərməyə çalışır. Amma bu dəfə deyəsən, həm də antiazərbaycançı şəbəkədən yeni "tapşırıqlar" alıb. Çünki yanvarın 19-da "Məhsul" stadionunda keçirdikləri mitinq yalnız yerli çağırışlarla başa gəlməmişdi. Xaricdəki antiazərbaycan dairələr tərərfindən idarə olunan ünsürlər də sosial şəbəkələr vasitəsilə mitinqə çağırış edirdilər. Beləliklə, son mitinq Azərbaycanın siyasi səhnədən demək olar ki, silinmək üzrə olan küçə müxalifətinin antiazərbaycançı dairələr və onların sifarişlərini yerinə yetirən xaricdəki sapı özümüzdən olanların təşkil etdiyi ortaq tədbir idi.

Amma hansı çağırışlarla başa gəlməsindən asılı olmayaraq, bu mitinq əvvəlkilərdən heç nə ilə fərqlənmirdi. Bu mənada özünü hələ də müxalifət hesab edənlərin və onların ətrafında olanların keçirdikləri mitinq bir daha göstərdi ki, Azərbaycan cəmiyyəti onları qəbul etmir. Bu mitinq göstərdi ki, dağıdıcı müxalifətın sosial bazası demək olar ki, tükənib. Və bu mitinq növbəti dəfə onların miskinliyini və zəifliyini nümayiş etdirdi.

Müxalifət başçılarının mitinqdəki çıxışlarına gəldikdə isə görünən odur ki, onların sanki bir mətnləri var və hər dəfə onu "Məhsul" stadionunda təkrarlayırlar. Bəzi antiazərbaycançı təşkilatların hər dəfə təkrarlanan hesabatları kimi müxalifət başçıları da hər mitinqdə əvvəlki çıxışlarını təkrar edirlər. Bu da onu göstərir ki, özünü müxalifət hesab edən partiyaların rəhbərləri cəmiyyətə yeni, faydalı, konstruktiv heç nə təklif edə bilmirlər. Bu həm də onu göstərdi ki, onların aydın proqramı, nöqsan hesab etdikləri məsələlərlə bağlı hansısa təklifləri belə yoxdur. Beləliklə, son mitinqdə də 25 ildən çox dəyişməyən eyni simalar tərəfindən eyni şüarlar, eyni populist və mənasız çağırışlar, əsassız ittihamlar, yalan vədlər, çıxışçıların qulaqyorucu səs tembrləri yenidən təkrarlandı. Onların çıxışları, irəli sürdükləri iddialar bir daha təsdiq etdi ki, dağıdıcılıq, sabitliyin pozulması yolu ilə hakimiyyəti zəbt etmək niyyətindən əl çəkməyiblər.

Maraqlıdır ki, antiazərbaycançı ünsürlərin sosial şəbəkə hesablarında müxalifətin əslində, aksiyanı xatırladan bu mitinqi "qələbə" kimi təqdim olunur. Halbuki mitinq öz xaotikliyi, təşkilatçılığın zəifliyi, sistemsizliyi ilə diqqəti çəkdi. Stadionda heç bir ziyalı, cəmiyyətdə tanınan şəxsin iştirakı nəzərə çarpmadı. Qeyd etdiyimiz kimi, bu, mitinq yox, sadəcə, bir aksiya idi.

Qeyd edək ki, radikal müxalifət başçıları öz iddialarını reallaşdırmaq üçün Azərbaycanın Suriya, Liviya və digər hazırda vətəndaş qarşıdurması gedən digər ölkələrin vəziyyətinə düşməsinə hazırdırlar. Bu gün Azərbaycana qarşı düşmən və bədxah mövqedə dayanan, uğurlu neft strategiyamızı, iqtisadiyyatımızın inkişafını, regionun lider, əsas söz sahibi olan dövlətinə çevrilməyimizi gözü götürməyən müəyyən xarici dairələr var. Sosial dayaqlarını itirmiş radikal müxalifət başçıları və onların azsaylı tərəfdarları iqtidarın uğurlu daxili və xarici siyasəti nəticəsində Azərbaycanın hərtərəfli inkişafını gördükləri və bu vəziyyətin onların hakimiyyətə gəlmək perspektivlərinin üzərindən birdəfəlik xətt çəkdiyini dərk etdikləri üçün antiazərbaycan, o cümlədən ermənipərəst dairələrlə işbirliyinə gedirlər. Çünki özləri demiş, məqsədlərinə çatmaq üçün şeytanla da əməkdaşlığa hazırdırlar. Azərbaycanın Suriyanın, Liviyanın vəziyyətinə salınması isə antiazərbaycançı şəbəkənin əsas niyyətidir. Təbii ki, bu niyyət onların gözündə qalacaq. Çünki Azərbaycan cəmiyyətində radikal müxalifətə yer yoxdur və olmayacaq.

Son "Məhsul" aksiyasından sonra görünən odur ki, Prezident İlham Əliyev ölkənin inkişafını uğurla təmin etdikcə, neqativ hallarla mübarizəni gücləndirdikcə, sistem xarakterli islahatlarının miqyasını genişləndirdikcə, Azərbaycan idarəetmə fəlsəfəsini dəyişdikcə özlərini ona opponent hesab edənlər daha da aqressivləşir və mütəşəkkil şəkildə müqavimət göstərməyə çalışırlar. Görəsən belə bir vaxtda, o cümlədən Ermənistanla danışıqların yeni mərhələyə daxil olması ərəfəsində güclü mövqedən çıxış edən Azərbaycanın daxilində qarşıdurma yaratmağa çalışan bu qrupların məqsədi nədir? Əlbəttə ki, antiazərbaycançı şəbəkədən Azərbaycanın uğurlarına kölgə salmaq üçün tapşırıqlar alırlar.

Bu mənada, Əli Kərimli kimi marginallaşmış, milli maraqları tapdaq altına atan xəyanətkarların siyasətçi obrazına girib, meydana çıxıb özlərini müxalifətin lideri adlandırması bütövlükdə cəmiyyətimiz üçün qəbuledilməz, müxalifət, digər müxalif partiyaların rəhbərləri üçün isə aşağılayıcı faktordur.

Əslində, radikal müxalifət başçıları özləri də yanvarın 19-da keçirdikləri mitinqin fiaskoya uğradığını anlayırlar. Əgər belə olmasaydı, bir gün sonra yanvarın 20-də Şəhidlər xiyabanında cəmiyyətə qarşı hörmətsizlik etməzdilər. Ümumiyyətlə isə belə bir ümummilli hüzn günündən sui-istifadə edib siyasi məqsədlər üçün aksiya təşkil etmək cəhdi mənəviyyatsızlıqdan başqa bir şey deyil. Həm də bir daha aydın oldu ki, bu insanlar normal, sivil qaydada tədbir keçirmək, ictimaiyyətə öz fikirlərini, ideyalarını çatdırmaq qabiliyyətində deyillər. Çünki hələ də 1990-cı illərin qaragüruhçuluq ab-havası ilə yaşayırlar.

Bütün bunlar onu deməyə əsas verir ki, baş verən qanunsuz hərəkətlər müvafiq dövlət orqanları tərəfindən araşdırılmayınca və ona qiymət verilməyincə dağıdıcı qrupların kütləvi aksiya təşkil etməsi imkanları məhdudlaşdırılmalıdır. Kim iddia edə bilər ki, bu kimi qabiliyyətsiz adamlar və onların ətrafındakılar hakimiyyətə alternativ ola və əzələ nümayiş etdirə bilərlər? Bu iddianı hətta dağıdıcı müxalifətin sayları minimuma enmiş üzvləri də gülüşlə qarşılayarlar.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Yüksək keyfiyyətli ali təhsil ocağı

## "UNEC-100"




2030-cu ilədək dövrü əhatə edən "UNEC-100" İnkişaf Strategiyasının məqsədlərindən biri yüksək keyfiyyətli ali təhsil ocağına çevrilməkdir.

Strategiyaya əsasən, UNEC bu məqsədə nail olmaq üçün yüksək bal toplayaraq universiteti seçən abituriyentlərin sayını artırmağı, orta keçid balını 500-ə yüksəltməyi, tədris prosesini daim təkmilləşdirməyi, akademik heyətinin peşəkarlıq səviyyəsini və 40 yaşadək professor-müəllim heyətinin payını davamlı yüksəltməyi, təhsil proqramlarının beynəlxalq akkreditasiya olunmasını, tələbələrin təqaüd və yataqxana ilə təmin olunma imkanlarını artırmağı, ölkədə və regionda ən geniş distant təhsil xidmətləri göstərməyi hədəfləyib.

Sənəddə hər bir hədəfə nail olmaq üçün stratefi fəaliyyətlər əks olunub. Ölkədə orta təhsilin keyfiyyətinin yüksəldilməsinə və şagirdlərin ilkin iqtisadi biliklərinin formalaşdırılmasına dəstək verilməsi, təhsil proqramları ilə bağlı tanıtım tədbirlərinin genişləndirilməsi, baza məktəblərinin sayının artırılması UNEC-in strateji fəaliyyətləri kimi göstərilib.

2030-cu ilə qədər tədris prosesini təhsil alanlarda zəruri bilik və bacarıqları formalaşdırmağa imkan verəcək səviyyədə daim təkmilləşdirməyi hədəfləyən UNEC bu istiqamətdə də əsas fəaliyyətlərini müəyyən edib. Belə ki, həmin dövrədək ixtisaslar, tədris standartları və planlarının dünya təcrübəsi və əmək bazarının tələblərinə uyğunlaşdırılması, müəllimin tələbə tərəfindən seçiminin təmin edilməsi, aktiv dərs yükünün və hər müəllimə düşən tələbə sayınının 1/16 nisbətinə qədər azaldılması nəzərdə tutulub.

Strategiyaya görə, ixtisas fənlərinin tədrisində effektivliyi təmin etmək, tədrisin informasiya təminatını yaxşılaşdırmaq, Azərbaycan dilində tədris resurslarını inkişaf etdirmək, 24/7 kitabxana şəbəkəsi qurmaq, mentorluq institutu formalaşdırmaq, tələbələrin İKT, akademik yazı və natiqlik bacarıqlarını inkişaf etdirmək, mübadilə proqramlarına daha çox müəllim və tələbə cəlb etmək, innovativ təlim metodlarından istifadəni genişləndirmək, tələbələrin təcrübəsinin təşkilini təkmilləşdirmək, "oriyentasiya günləri"nin səmərəliliyini artırmaq əsas fəaliyyət istiqamətləri kimi təsbit olunub.

UNEC 100 illik yubileyinədək ölkədə və regionda ən geniş distant təhsil xidmətləri göstərən Distant Təhsil Mərkəzi formalaşdıraraq, ümumi fənlərin distant tədrisini, eləcə də distant təhsil proqramlarını təklif etməyi də hədəf seçib.

***"Azərbaycan"***

# "Gənclərin məşğulluğu: *işəgötürənlərin baxışı, çağırışlar və perspektivlər*" mövzusunda konfrans keçirilib

23 yanvar 2019-cu il tarixdə Bakı şəhərində Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının və Beynəlxalq Əmək Təşkilatının birgə təşkilatçılığı ilə "Gənclərin məşğulluğu: işəgötürənlərin baxışı, çağırışlar və perspektivlər" mövzusunda konfrans keçirilmişdir.







Konfransı giriş sözü ilə açan Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev qeyd etdi ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş sosial-iqtisadi inkişaf strategiyasının ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmizin iqtisadi qüdrəti günbəgün yüksəlir. Aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində ölkəmiz son illər sürətli inkişafa nail olmuş, xalqımızın rifah halı yaxşılaşmış, dövlətimizin dünyada nüfuzu artmışdır. Aparılan islahatlar dünyanın aparıcı iqtisadi mərkəzləri tərəfindən də yüksək qiymətləndirilmişdir.

Uğurlu sosial-iqtisadi siyasət nəticəsində yoxsulluğun və işsizliyin səviyyəsi 5 faiz həddinə düşmüş, ölkəmizdə əsaslı surətdə infrastruktur layihələri həyata keçirilmiş, biznes mühitinin əlverişliyinin artırılması istiqamətində davamlı islahatlar aparılmaqdadır. Hazırkı mərhələdə qarşıda duran başlıca məqsədlərdən biri milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsi və dünya iqtisadi sisteminə səmərəli inteqrasiyasına nail olmaqla, ölkəmizin dinamik sosial-iqtisadi inkişafının davamlılığını təmin etməkdir.

Azərbaycan Sahibkarlar Konfederasiyasının əsas məqsədi öz üzvlərinin mövcud potensialından istifadə edərək dövlət-özəl sektor əməkdaşlığı mexanizmləri vasitəsi ilə respublikamızda daha əlverişli biznes mühitinin yaradılması prosesində və dayanıqlı inkişafın təmin olunmasında yaxından iştirak etməkdir.

Hər bir dövlətin makroiqtisadi siyasətinin əsas məqsədlərindən biri əməkqabiliyyətli əhalinin məşğulluğunu yüksək səviyyədə təmin etməkdən ibarətdir. Məşğulluq siyasəti, xüsusilə gənclərin məşğulluğu dövlətin sosial-iqtisadi siyasətinin əsas istiqamətlərindən biridir.

M.Musayev cıxışının sonunda iştirakçıların nəzərinə çatdırdı ki, bu gün ölkələrin zənginliyi onların insan ehtiyatlarının səviyyəsi ilə müəyyən olunur. Məhz bu səbəbdən də respublikamızda gənclərin məşğulluğunun təmin edilməsi, onların peşəkar səviyyədə bilik və bacarıqlarının artırılması, ölkədə daha güclü kadr potensialının yaradılması, gənc sahibkarlar üçün əlverişli biznes mühitinin formalaşdırılması kimi mövzulara toxunan belə tədbirlərin keçirilməsi mühüm əhəmiyyətə malikdir.

Daha sonra çıxış edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Mətin Kərimli konfransın mövzusunun əhəmiyyətinə toxunaraq, Azərbaycan dövlətinin bu sahədə həyata keçirdiyi tədbirlər barədə məlumat verdi. Nazir müavini qeyd etdi ki, aparılan uğurlu sosial iqtisadi siyasət nəticəsində Azərbaycan məşğulluq sahəsində göstəricilərinə görə dünyada ən yaxşı mövqelərdən birinə malikdir. O bildirdi ki, hazırda həyata keçirilən özünəməşğulluq layihəsi vətəndaşların daha çox iş yerləri ilə təmin edilməsinə imkan verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev çıxış edərək, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə Azərbaycan Sahibkarlar Konfederasiyası arasında həyata keçirilən uğurlu əməkdaşlıqdan danışdı və sahibkarlıq subyektlərində işçilər üçün əlverişli və təhlükəsiz əmək şəraitinin yaradılmasının əhəmiyyətini, sosial məsuliyyətin vacibliyini, gənc sahibkarların sosial məsələlərin həllində rolunu vurğuladı.

Təhsil nazirinin müavini İdris İsayev çıxış edərək, gənclərin məşğulluğunun keyfiyyətli təhsillə birbaşa əlaqədar olduğunu qeyd edərək, Təhsil Nazirliyi tərəfindən aparılan islahatlar barədə məlumat verdi.

Daha sonra Milli Məclisin Gənclər və idman komitəsinin sədri Ülvi Quliyev, Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov, Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev, Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai çıxış edərək dünyada gənclərin məşğulluğu sahəsində möcud olan problemlər və gələcək perspektivlər, habelə gənclər arasında sahibkarlığın inkişafı ilə bağlı fikirlərini bildirdilər.

Çıxışlardan sonra Beynəlxalq Əmək Təşkilatının Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üzrə ofisinin rəhbəri Olqa Kulayeva və həmin ofisin əməkdaşı Mixail Puşkin "Əməyin gələcəyi" mövzusunda qlobal hesabatı təqdim etdilər.

Konfrans təşkilatçıları, tədbirin təşkilinə, eləcə də bütövlükdə ölkəmizdəki əmək münasibətlərinin tənzimlənməsi və məşğulluq siyasətinin formalaşmasına göstərdikləri dəstəyə görə Beynəlxalq Əmək Təşkilatına təşəkkürlərini bildirdilər.

Konfransın əsas hissəsi başa çatdıqdan sonra tədbir panel sessiyaları ilə davam etdirildi.

Gənclərin məşğulluğu təhsil səviyyəsini ən qabarıq formada əks etdirən sahədir. Məhz bu səbəbdən də konfransın panel sessiyalarından birincisi "Əmək bazarının tələbləri, təhsil, təlim və bacarıqların inkişafı" mövzusuna həsr olunmuşdur.

Konfransın ikinci paneli "Gənclər arasında sahibkarlığın inkişafı" mövzusuna həsr edilmişdir.

Konfransın sonuncu paneli "Əlverişli qanunvericilik və əmək münasibətləri" mövzusuna həsr olunmuş, bu paneldə sahibkarlığın inkişafı və əmək münasibətləri üçün mövcud qanunvericilik aktları müzakirə edilmişdir.

Qeyd olunan panel sessiyalarındakı müzakirələrdə Azərbaycan Sahibkarlar Konfederasiyasının, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Həmkarlar Konfederasiyasının, Təhsil Nazirliyinin, Peşə Təhsili üzrə Dövlət Agentliyinin, Beynəlxalq Əmək Təşkilatının, Gənclər və İdman Nazirliyinin və digər dövlət orqanlarının, habelə özəl şirkətlərin nümayəndələri iştirak ediblər.

Bununla da konfrans öz işini başa çatdırıb.

***"Azərbaycan"***

# Milli Məclisin komitə iclasları keçirilib

Yanvarın 24-də Milli Məclisin Elm və təhsil komitəsinin yaz sessiyasında ilk iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, komitənin sədri İsa Həbibbəyli əvvəlcə 2018-ci il payız sessiyasının yekunlarından danışıb. Bildirib ki, hesabat dövründə komitənin 7 iclası keçirilib, 12 məsələ müzakirə olunub. Payız sessiyasında komitəyə 149 müraciət ünvanlanıb. Vətəndaşlardan daxil olmuş 137 müraciətlə əlaqədar 102 məktub hazırlanıb aidiyyəti üzrə müvafiq təşkilatlara göndərilib.

Komitənin payız sessiyası dövründə fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

Daha sonra komitənin 2019-cu il yaz sessiyası üçün nəzərdə tutulan iş planına baxılıb və təsdiqlənib.

İclasda həmçinin "Ümumi təhsil haqqında" qanun layihəsi ikinci oxunuşda müzakirə olunub. Qanun layihəsini təqdim edən komitə sədri İsa Həbibbəyli bildirib ki, sənəd 5 fəsil, 33 maddədən ibarətdir. Bu sənəd Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq, ölkəmizdə ümumi təhsilin təmin olunması sahəsində dövlət siyasətinin əsas prinsiplərini, ümumi təhsilin təşkilati-hüquqi və iqtisadi əsaslarını müəyyən edir.

Qanun layihəsində qeyd edilir ki, təmayül sinifləri şagirdlərin sayı ən azı 15 nəfər olmaqla komplektləşdirilir. Tədris ili ərzində bu sayın azalması siniflərin fəaliyyətinin davam etdirilməsinə məhdudiyyət yaratmır. Ümumi orta təhsil icbaridir, eyni zamanda, ümumi təhsil pulsuzdur. Ümumi təhsil müəssisəsinin təsisçisi dövlət, bələdiyyə, Azərbaycan Respublikasının və xarici dövlətlərin hüquqi şəxsləri, Azərbaycan vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ola bilər. Yəni, qanun layihəsinə əsasən, Azərbaycanda bələdiyyə məktəbləri də yaradılacaq. Sənəddə əksini tapan məsələlərdən biri də məktəblərdə vahid geyim formasının tətbiq edilməsidir. Belə ki, ümumi təhsil müəssisəsində təhsil alanlar üçün Təhsil Nazirliyi tərəfindən müəyyənləşmiş geyim formaları tətbiq olunacaq. Sənədin mühüm və başlıca cəhətlərindən biri gənclərə müasir dövrün tələblərinə uyğun bilik və bacarıqlar verilməklə yanaşı, onların vətənpərvər ruhda yetişdirilməsidir.

Layihənin ikinci oxunuşda müzakirəsi zamanı deputatların toxunduğu əsas məsələlərdən biri dərsliklərlə bağlı olub.

Deputatlar sənədlə bağlı fikir və təkliflərini səsləndiriblər.

İclasda iştirak edən təhsil nazirinin müavini İdris İsayev deyib ki, növbəti ayda dərsliklərlə bağlı normativ-hüquqi akt qəbul ediləcək. Bu, ictimaiyyətə açıqlanacaq. Həmin sənəddə həm dərsliklərin hazırlanması, həm təsdiqlənməsi, nəşr edilməsi kimi müddəalar əksini tapacaq. Əlbəttə, dərsliklər təhsilin məzmunundan irəli gəlir. Məzmunla bağlı bu qanunda da müddəalar bir qədər genişləndirilə bilər.

Qanun layihəsinə əsasən, Azərbaycanda ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunlara xüsusi nümunəli attestat veriləcək. Qanun layihəsi ilə yanaşı, ölkədə dövrün və zamanın tələblərinə uyğun olaraq ümumi təhsilin dövlət standartlarının növbəti mərhələsi hazırlanır.

Təhsil Nazirliyinin aparat rəhbərinin müavini Fərzəli Qədirov deyib ki, Təhsil Nazirliyi Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasına uyğun olaraq ümumi təhsilin yeni standartlarını hazırlayıb. Yeni fənn kurikulumlarının layihələri də hazırlanıb. Milli-mənəvi dəyərlər, tədris yükünün optimallaşdırılması yeni hazırlanan sənədlərdə əksini tapıb.

Sonra cari məsələlər müzakirə olunub.

* * *

Yanvarın 24-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin yaz sessiyasında ilk iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, komitənin sədri Hadi Rəcəbli əvvəlcə 2018-ci il payız sessiyası dövründə görülən işlərdən danışıb. Bildirib ki, hesabat dövründə komitənin 10 iclası keçirilib, 45 məsələ müzakirə edilib. Onlardan 21-i qanun layihəsi olub.

Deputatlar komitənin payız sessiyasına dair hesabatını məqbul sayıblar.

İclasda həmçinin 2019-cu ilin yaz sessiyası üçün komitənin iş planı müzakirə olunub.

Müzakirələrdə çıxış edən komitə üzvləri 2019-cu ilin yaz sessiyasında baxılması nəzərdə tutulan məsələlər barədə fikirlərini bildirib, bir sıra təkliflər səsləndiriblər. Sonra komitənin iş planı təsdiqlənib.

Daha sonra gündəlikdəki digər məsələlərə baxılıb.

İclasda Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihələri birinci oxunuşda müzakirə olunub. Bildirilib ki, Əmək Məcəlləsinin 3-cü maddəsinin 5-1-ci hissəsinə "müvafiq icra hakimiyyəti orqanının" sözlərindən sonra "mərkəzləşdirilmiş" sözü əlavə edilir. Bundan başqa, sənədin 14-cü maddəsinin 3-cü hissəsinin üçüncü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilir və "əmək münasibətləri sahəsində elektron xidmətləri elektron informasiya sistemi vasitəsilə həyata keçirir." məzmunlu dördüncü abzas əlavə edilir.

Cəzaların İcrası Məcəlləsinin 90-cı maddəsi isə yeni redaksiyada verilir.

Sonra "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Sosial sığorta haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında" və "Əmək pensiyaları haqqında", "İşsizlikdən sığorta haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrinə baxılıb.

Müzakirə olunan qanun layihələri baxılması üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.





# 102 qəsəbə, 55 min mənzil

## Və 300 min məcburi köçkünə Prezident dəstəyi

*Əvvəli 1-ci səh.*

















Dövlət başçısı Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında da diqqətə çatdırıb ki, ötən il 5800 köçkün ailəsi üçün fərdi evlər, mənzillər tikilib və istifadəyə verilib: *"Bu, son illər ərzində rekord göstəricidir. Bununla bərabər, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 620-dən çox mənzil verilib. Bu il daha da çox mənzil veriləcək, o cümlədən məcburi köçkünlər üçün yeni şəhərciklər tikiləcək. Yəni bu məsələ daim diqqət mərkəzindədir. Biz hələ də ağır vəziyyətdə yaşayan köçkünlərin problemlərinin həlli üçün bu il də böyük vəsait nəzərdə tutmuşuq. Biz bu məsələləri həll edəcəyik. Əlbəttə, bütün bu işləri görmək üçün iqtisadi güc olmalıdır və biz bunu yaradırıq".*

Dövlətin bu istiqamətdə tədbirlərini davam etdirməsi isə çətin vəziyyətdə yaşayan köçkünlərin problemlərinin tezliklə həllinə lazımi şərait yaradır.

### Müasir tələblərə cavab verən yaşayış məntəqələri

Bu arada onu da qeyd edək ki, məcburi köçkünlərin məişət problemlərinin həlli işində dövlətlə yanaşı artıq özəl sektor da yaxından iştirak edir. Ötən il "Qobu Park" köçkün şəhərciyinin açılışı bunun bariz nümunəsi oldu. Xatırladaq ki, burada mindən çox ailə üçün yeni binalar, evlər tikilib, bütün infrastruktur yaradılıb. Ən əsası isə, həmin layihə özəl sektor tərəfindən təmin edilib, tikilib və maliyyələşdirilib. Növbəti dövrdə də bu istiqamətdə özəl sektorun fəaliyyətinin genişlənməsi gözlənilir.

Lakin o da birmənalı həqiqətdir ki, bu vaxta qədər məcburi köçkünlərin problemlərinin həllində ən böyük yük məhz dövlətin üzərinə düşüb. Elə təkcə ötən ay istifadəyə verilən məcburi köçkünlər üçün iki yaşayış məntəqəsi də bunun real təsdiqidir.

Xatırladaq ki, ötən il dekabrın 27-də Sumqayıt şəhərində qaçqın və məcburi köçkün ailələri üçün inşa edilən yaşayış binaları kompleksinin açılışı olub. Açılışına Prezident İlham Əliyevin qatıldığı yaşayış məntəqəsi şəhərin mərkəzində, Koroğlu prospektində yerləşir. Xüsusi memarlıq üslubunda və müasir səviyyədə inşa olunan bu kompleks 1005 qaçqın və məcburi köçkün ailəsi üçün nəzərdə tutulub. Ərazisi 4 hektar olan kompleksdə ümumilikdə 12 bina, o cümlədən səkkizmərtəbəli səkkiz, 15 mərtəbəli dörd bina var. Kompleksdə məktəb, uşaq bağçası, mərasim evi, polis məntəqəsi və digər zəruri infrastruktur obyektləri inşa edilib.

Layihənin icrası zamanı Sumqayıtdakı 12-ci mikrorayonda yerləşən 21 saylı məktəbə əlavə olaraq dördmərtəbəli yeni korpus inşa edilib, məktəbin mövcud binasının fasadı, dam örtüyü tamamilə yenilənib.

Bütün bunlar sübut edir ki, Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi qayğı ilə yanaşır, bu məsələni daim diqqət mərkəzində saxlayır. Dövlət başçısı qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həllini dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edib.

Dekabrın 24-də açılışı olan Abşeron rayonunun ərazisində 1000 məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış kompleksi də qeyd edilənlərin təsdiqidir. Xatırladaq ki, yeni yaşayış məhəlləsinin layihələndirilməsi və tikintisi Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən həyata keçirilib. Kompleksin inşasına ötən ilin martında başlanılıb və tikinti işləri yüksək səviyyədə həyata keçirilib. Layihə üzrə 23-ü 42, biri isə 35 mənzilli olan yeddimərtəbəli yaşayış binası inşa olunub. Məktəb və uşaq bağçasının daxil olduğu yeni yaşayış kompleksində digər zəruri infrastruktur obyektləri - klub-icma mərkəzi, həkim məntəqəsi, ATS binası tikilib, istirahət parkı salınıb, uşaq meydançaları yaradılıb. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görülüb. Kompleks salınarkən elektrik, su, qaz, istilik təchizatı və suvarma sisteminin, rabitə və televiziya şəbəkəsinin qurulmasına xüsusi diqqət göstərilib. Yeni yaşayış kompleksində hazırda Sumqayıt şəhəri və Abşeron rayonu ərazisində yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri mənzillə təmin olunub.

### Sosial problemlərin həlli Birinci vitse-prezidentin xüsusi diqqət mərkəzindədir

Ümumiyyətlə, son illərdə qaçqınlar və məcburi köçkünlər üçün bütün zəruri infrastrukturla təchiz olunmuş qəsəbələr salınıb, çoxmərtəbəli binalar inşa olunub. Qaçqınların və məcburi köçkünlərin sağlamlıqlarının təmini, sosial durumlarının yaxşılaşdırılması, məşğulluqlarının artırılması və digər məsələlərlə bağlı da bir sıra mühüm işlər görülüb. Bu işlərə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr də töhfə verir.

Ümumiyyətlə, Azərbaycan dövlətinin qaçqınların və məcburi köçkünlərin sosial məsələlərinin həlli istiqamətində gördüyü tədbirlər dünyada çox nadir təcrübədir. Bu təcrübə bütün beynəlxalq təşkilatlar tərəfindən çox yüksək qiymətləndirilir və ondan istifadə olunur. Eyni zamanda qaçqın və məcburi köçkünlərin müvəqqəti yaşayış yerləri və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi diqqətin təzahürüdür.

- Yeni qəsəbələrin salınmasına ümumilikdə 2 milyard manatdan çox vəsait sərf olunub
- Sosial problemlərin həlli üçün 7,1 milyard manatdan artıq vəsait xərclənib
- Yoxsulluq həddi son 15 ildə 75 faizdən 12 faizədək azalıb
- 2 min məcburi köçkün sahibkara 40 milyon manat güzəştli kredit verilib
- 200 mindən çox məcburi köçkün büdcə təşkilatlarında və digər sahələrdə daimi işlə təmin edilib
- 24 min məcburi köçkünə 14,8 milyon manat məbləğində mikrokredit verilib
- 2018-ci ildə evlə təmin olunan məcburi köçkün ailələrinin sayı 5800-ə çatıb
- Bakı və Sumqayıt şəhərlərində qəzalı binalarda ağır şəraitdə yaşayan 4 min məcburi köçkün ailəsinin mənzil şəraiti yaxşılaşdırılıb
- Bu il Beyləqanda 146 məcburi köçkün ailəsi yeni mənzillərlə təmin olunacaq

Xatırladaq ki, bu kateqoriyadan olan insanların maddi rifahının yaxşılaşdırılması üçün dövlət proqramları qəbul edilib, sosial müavinətlərin artırılması istiqamətində mühüm tədbirlər görülüb. Bu istiqamətdə atılan mühüm addımlardan biri də 2017-ci il martın 9-da Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr edilən müşavirənin keçirilməsi oldu.

Mehriban Əliyeva müşavirədəki çıxışında ağır vəziyyətdə, qəzalı və yararsız binalarda məskunlaşan məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı tapşırıqlarını verdi. 2017-ci ilin may ayında Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün inşa edilən yaşayış kompleksinin təməli qoyuldu. Abşeron rayonunun Masazır, Mehdiabad, həmçinin Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edildi. Bununla yanaşı, Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzilə Binəqədi rayonu, 9-cu mikrorayon ərazisindəki Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasından məcburi köçkün ailələrinin köçürülməsi başa çatdı.

2007-ci ildə ölkədəki 12 çadır düşərgəsinin ləğv edilməsi ilə başlanan proses nəticəsində qaçqın və məcburi köçkünlər üçün indiyədək 3,5 milyon kvadratmetr yaşayış sahəsi olan müasir qəsəbələr və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb. Evlərlə, mənzillərlə təmin edilmiş məcburi köçkünlərin sayı artıq 300 minə çatır. Bu da 55 min ailə deməkdir.

Ümumilikdə bu kateqoriyadan olan insanların sosial problemlərinin həlli üçün indiyədək 7,1 milyard manatdan artıq vəsait xərclənib. Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən 24 min məcburi köçkünə 14,8 milyon manat məbləğində mikrokredit, İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən isə 2 min 74 məcburi köçkün sahibkara 44,3 milyon manat güzəştli kredit verilib. Bu mikrokreditlərin əksəriyyəti kənd təsərrüfatı - əkinçilik, heyvandarlıq, bitkiçilik, arıçılıq ilə bağlı layihələrə yönəldilib. Ötən dövrdə 200 min məcburi köçkün büdcə təşkilatlarında və digər sahələrdə daimi işlə təmin edilib. Bununla da məcburi köçkünlər arasında yoxsulluq həddi son 15 ildə 75 faizdən 12 faizədək azalıb.

### Genişmiqyaslı işlər bu il də davam etdiriləcək

Cari il ərzində də məcburi köçkünlərin mənzil və digər problemlərinin həlli istiqamətində genişmiqyaslı işlərin görülməsi nəzərdə tutulur. Artıq Beyləqan rayonunda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri üçün bütün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış kompleksi inşa edilir. 146 evdən ibarət olacaq qəsəbənin inşası üçün 30 hektar torpaq sahəsi ayrılıb. Mənzillərin 12-si birotaqlı, 73-ü ikiotaqlı, 54-ü üçotaqlı, 7-si dördotaqlıdır. Ərazidə bundan əlavə 150 şagird yerlik məktəb binası, 50 yerlik uşaq bağçası, tibb məntəqəsi, klub-icma mərkəzi və inzibati bina da tikilir. Qəsəbədəki evlərin hər birinin sanitar qovşağı və 12 sot həyətyanı sahəsi olacaq. Qəsəbədə infrastruktur işləri də həyata keçirilir. Hər biri 300 kubmetr olan iki ədəd içməli su anbarından birinin inşası başa çatıb, iki ədəd subartezian quyusu qazılıb, elektrik yarımstansiyası tikilib. Yaşayış kompleksində içməli su, qaz, elektrik, rabitə xətləri çəkiləcək, qəsəbədaxili yollara asfalt örtük salınacaq, yağış sularının axıdılması üçün arxlar tikiləcək, abadlıq və yaşıllaşdırma işləri aparılacaq.

Tikinti işləri ilə 9 şirkət məşğul olur. Əsasən yerli sakinlər və məcburi köçkünlər olmaqla, 300-dən çox işçi, 20-yə yaxın texnika çalışır. İnşaat işlərinin aprel ayında başa çatdırılması nəzərdə tutulur. İl ərzində digər ərazilərdə də məcburi köçkünlər üçün yaşayış məntəqələrinin istifadəyə verilməsi nəzərdə tutulur.

Bütün bunlar bir daha sözügedən kateqoriyadan olan insanlara yüksək diqqət və qayğının real təzahürləridir. Dövlətin qayğısını hər zaman üzərlərində hiss edən məcburi köçkünlər tezliklə doğma yurdlarında da onlar üçün hər cür yüksək şəraitin yaradılacağını yaxşı bilirlər.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Davosdan İlham Əliyevə tam dəstək

*Əvvəli 1-ci səh.*

Azərbaycana göstərilən bu yüksək etimad həm də ölkə rəhbərinin Dünya İqtisadi Forumunda fəal iştirakı, maraqlı və strateji əhəmiyyət kəsb edən mülahizələrlə zəngin çıxışları, keçirdiyi çoxsaylı və yüksəksəviyyəli işgüzar görüşlərin nəticəsi kimi qəbul olunmalıdır.

### Dünyanın beyin mərkəzlərinin Azərbaycana marağı artır

Davos İqtisadi Forumunun başlıca məqsədi qlobal vəziyyətin iqtisadi inkişaf və sosial tərəqqi məsələlərinin həllində dünya birliyinə kömək etmək yolu ilə yaxşılaşdırılmasıdır. Buna görə də forum qlobal inkişafın mühüm problemlərini müzakirə və həll etmək üçün dünya birliyinin işgüzar, siyasi, intellektual və digər liderləri arasında tərəfdaşlığın inkişafına kömək edir. Bu forum əlaqələrin daha optimal şəkildə qurulması, hər kəsə xeyir verəcək layihələrin ortaya çıxması və müqavilələrin bağlanması ilə şərtlənir.

Azərbaycan hər il bu forumda dövlət başçısı səviyyəsində təmsil olunur. Ölkəmiz forumda vacib tərəfdaş kimi tanınır. Dövriyyəsi milyardlarla dollar olan böyük şirkətlərin rəhbərləri Azərbaycana maraq göstərir, iqtisadi cəhətdən inkişaf edən dövlətlərin liderləri Azərbaycanın dövlət başçısı ilə görüşür, mühüm layihələr müzakirə edilir. Davos Forumunda Azərbaycanın hər il dövlət başçısı səviyyəsində təmsil olunması ölkəmizin dünya birliyinə inteqrasiyasını daha da möhkəmləndirir, iqtisadi əlaqələrimizi davamlı və etibarlı edir.

İqtisadi-sosial inkişafının yeni mərhələsini yaşayan Azərbaycan dövlətinin Davos Forumunda təmsil olunması yeni əlaqələrin qurulması, xüsusilə Qeyri-neft sektorunun inkişafı ilə bağlı Strateji Yol Xəritəsinin reallaşması yönündə maraqlı görüşlər keçirilməsi, təkliflərin verilməsi baxımından da çox önəmlidir. Yeni Azərbaycanın iqtisadi sahədə uğurlarının dünyaya təqdim olunmasında bu forum mühüm vasitədir. Dövlət başçısının həm ikitərəfli görüşlərdə, həm də interaktiv iclaslardakı çıxışları dünyanın Azərbaycana olan marağını daha da artırır, özünün inkişaf modelinə, iqtisadi göstəricilərinə və iqtisadiyyatının unikallığına görə dünya iqtisadçılarının, beyin mərkəzlərinin, eləcə də iqtisadi reytinq göstəricilərini müəyyənləşdirən beynəlxalq qurumların diqqətini cəlb edir.

### Dövlət və hökumət başçıları, beynəlxalq şirkətlərin rəhbərləri ilə 20 görüş

Hər il Dünya İqtisadi Forumunda iştirak edən Prezident İlham Əliyev işgüzar səfər çərçivəsində mühüm görüşlər keçirir. Bu il dövlət başçısının mühüm görüşləri baş tutdu.

Davosa işgüzar səfər çərçivəsində dövlət başçısının Dünya İqtisadi Forumunun prezidenti Borge Brende, Dünya Bankının baş icraçı direktoru xanım Kristalina Georgiyeva, "Visa" şirkətinin prezidenti Rayan MakInerni, BP qrupunun baş icraçı direktoru Robert Dadli, "Equinor" (keçmiş "Statoil") şirkətinin baş icraçı direktoru Eldar Saetre, "Suez Group" şirkətinin beynəlxalq inkişaf üzrə icraçı vitse-prezidenti Erik Gebali, "VTB-Bank"ın prezidenti və idarə heyətinin sədri Andrey Kostin, "Lazard Freres" şirkətinin baş icraçı direktoru Metyu Piqas, "The Boston Consulting Group" şirkətinin prezidenti və baş direktoru Riç Lesser, "CISCO" şirkətinin icraçı vitse-prezidenti və satış rəhbəri xanım Gerri Elliott, "Procter and Gamble Europe" şirkətinin prezidenti Loik Tassel, "Signify" şirkətinin (keçmiş "Philips Lightning") baş icraçı direktoru Erik Rondolat, "Microsoft" şirkətinin vitse-prezidenti, Avropa, Yaxın Şərq və Afrika üzrə prezidenti Mişel Van Der Bel, "LUKoil" şirkətinin prezidenti Vahid Ələkbərov, "SAP SE" şirkətinin baş icraçı direktoru Bill MakDermot və Fransanın "Total" şirkətinin baş icraçı direktoru Patrik Puyanne ilə ümumilikdə 16 görüşü olub.

Davosda Prezident İlham Əliyevin İsveçrə Konfederasiyasının Prezidenti Ueli Maurerin, Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Oreşkin, Gürcüstanın Baş naziri Mamuka Baxtadze və həmçinin Ermənistanın baş naziri Nikol Paşinyanla qeyri-rəsmi görüşü baş tutub. Paşinyanla keçirilən görüş Dünya İqtisadi Forumunun prezidenti Borge Brendenin təşəbbüsü ilə reallaşıb. Görüş Düşənbə və Sankt-Peterburqda MDB Zirvə toplantısı çərçivəsində baş tutmuş qeyri-rəsmi görüşlərin davamı kimi qiymətləndirilir. Eyni zamanda müzakirələr Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqların gələcək istiqamətlərinin müəyyənləşməsində ümumi işin xeyrinə ola bilər.

Şirkət rəhbərləri ilə keçirilən görüşlərdə Azərbaycanda tranzit potensialının reallaşdırılması, iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən enerji sahəsində qlobal əhəmiyyətli layihələrin icrası ilə bağlı fikir mübadiləsi aparılıb. Dövlət başçısı ölkəmizdə kənd təsərrüfatı, nəqliyyat, infrastruktur, digər sahələrdə layihələrin həyata keçirilməsi ilə bağlı əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğunu vurğulayıb. Eyni zamanda Azərbaycanda inkişafın yeni mərhələsində həyata keçirilən iqtisadi islahatlardan danışaraq, informasiya-kommunikasiya texnologiyalarının tərəqqisinin prioritet sahələrdən biri olduğunu bildirib.

Azərbaycanda həyata keçirilən islahatları, yaradılan biznes mühitini və sürətli inkişafı dəstəklədiklərini bildirən şirkət rəhbərləri vurğuladılar ki, bütün bunlar Prezident İlham Əliyevin həyata keçirdiyi idarəetmə sistemlərinin daha da təkmilləşdirilməsinə mühüm töhfə verəcək.

Təbii ki, forum çərçivəsində keçirilən çoxsaylı görüşlər əməkdaşlığın inkişafına, ölkəmizə investisiya axınının çoxalmasına, Azərbaycan məhsullarının xarici bazarlara çıxarılmasına böyük zəmin yaradır.

### Beynəlxalq logistik mərkəzlərdən birinə çevrilməkdə olan Azərbaycan

Prezident İlham Əliyev KİV-ə müsahibələrində də qazanılan çox uğurlu nailiyyətlərə toxunaraq ölkəmizin inkişafını hərtərəfli şəkildə dünyaya təqdim etdi. Ölkəmiz tərəfindən həyata keçirilən iri layihələr, neft-qaz kəmərləri, İpək yolundan, iqtisadiyyatımızın şaxələnməsindən söz açan dövlət başçısı qeyd etdi ki, artıq Azərbaycan müxtəlif layihələrin reallaşmasında digər ölkələrə yardım edir. Bütün bunlar forumda iştirak edən dövlətlərin marağına səbəb olmaqla yanaşı, gələcək əməkdaşlıqlara yol açır ki, bu da ölkəmizin xeyrinədir.

Dünya İqtisadi Forumu çərçivəsində "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" mövzusunda sessiya zamanı Prezident Azərbaycanın reallaşdırdığı layihələrdən, infrastrukturdan söz açdı.

Müasir infrastrukturun yaradılmasının Azərbaycan hökumətinin ən əsas məqsədlərindən biri olduğunu söyləyən Prezident dedi ki, dövlət coğrafi vəziyyətdən faydalanaraq əsasən infrastruktura, yəni daxili infrastruktura və Azərbaycanın beynəlxalq hablardan birinə çevrilməsinə imkan verəcək infrastruktura sərmayə yatırmaqla doğru iş görüb: "Biz yolların, magistralların, hava limanlarının tikintisi, qazlaşdırmanın aparılması, elektrik enerjisinin generasiyası üçün ölkə daxilində infrastruktura sərmayə yatırırıq. Biz həmçinin nəqliyyat infrastrukturuna da sərmayə yatırmışıq. Bu da bizə yüklərin Şərqdən Qərbə, Şimaldan Cənuba və Cənubdan Şimala nəqlinə imkan verəcək".

Prezident həmçinin vurğuladı ki, Azərbaycan "Şərq-Qərb nəqliyyat dəhlizi" təşəbbüsünün fəal üzvüdür və əlbəttə ki, Çin hökumətinin "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyir. Azərbaycan özündən şimalda və cənubda yerləşən ölkələrə bu layihəyə qoşulmaq üçün imkanlar yaradır.

Onu da əlavə edək ki, Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin üzvü olan yeganə ölkədir. Bunun üçün dəmir yolu sistemlərinin müasirləşdirilməsi, Xəzərin sahilində 25 milyon tona qədər yük daşımaq gücündə olan ən böyük dəniz limanının tikintisi, Bakı-Tbilisi-Qars dəmir yolunun inşası bu yoldan istifadə etmək istəyənlərə yaxşı şərait yaradır.

Prezident həmçinin Azərbaycanın elektrik enerji generasiyasına çoxlu sərmayə yatırdığını və elektrik enerjisinin xalis ixracatçısına çevrildiyini söyləyərək vurğuladı ki, artıq Azərbaycan bu sahədən 10 milyonlarla dollar qazanc əldə edib.

### Azərbaycan dördüncü sənaye inqilabına doğru qətiyyətli addımlar atır

Davos Dünya İqtisadi Forumunda iştirak edən Prezident İlham Əliyevin ilk görüşünü forumun prezidenti Borge Brende ilə keçirməsi, əlbəttə ki, Azərbaycanın dövlət başçısına göstərilən ehtiramın bariz nümunəsidir. Dünya İqtisadi Forumunun prezidenti Borge Brende ilə görüşdə isə Azərbaycan hökuməti və Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında ilk dəfə olaraq əməkdaşlığın təməli qoyuldu. Bu məqsədlə Prezident İlham Əliyev və Borge Brende arasında əməkdaşlıq sazişinin təntənəli mübadiləsi həyata keçirildi.

Söhbət zamanı Borge Brende Azərbaycanın dördüncü sənaye inqilabına doğru qətiyyətli addımlar atdığını qeyd etdi. Prezident İlham Əliyev isə əməkdaşlıq sazişinin vacibliyini qeyd edərək dedi ki, bu sənəd tərəfdaşlıq ruhumuzu və qarşılıqlı səylərimizi davam etdirməkdə istəkli olduğumuzu nümayiş etdirir. Azərbaycan dördüncü sənaye inqilabının hədəflərinin həyata keçirilməsində çox fəal iştirak edəcək.

İsveçrəyə işgüzar səfərinin sonuncu günü, yanvarın 23-də dövlət başçısı İsveçrə Konfederasiyasının Prezidenti Ueli Maurerlə görüşdü. Bu səmimi görüşdə Prezident Ueli Maurer bir daha təsdiq etdi ki, İsveçrə iş adamları Azərbaycanda biznes mühiti üçün yaradılan şəraitdən çox razıdırlar. Onlar Azərbaycanda iqtisadi inkişaf və biznes imkanlarının genişləndirilməsi üçün əlverişli şəraitin yaradıldığını bildirirlər. Azərbaycan ilə İsveçrə arasında hava əlaqəsinin açılması da əməkdaşlığın genişləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır.

Söhbət zamanı qarşılıqlı ticarətin genişləndirilməsinin vacibliyi qeyd olundu. Azərbaycanda alternativ enerjinin istehsalında İsveçrə şirkətlərinin iştirakı məsələlərinə toxunuldu. Prezident İlham Əliyev Azərbaycanda bu sahədə də geniş işlərin aparıldığını dedi və İsveçrənin təcrübəsinin ölkəmizdə öyrənilməsinin əhəmiyyətini vurğuladı.

Beləliklə, 13-cü dəfə Davosda Azərbaycan həqiqətlərini dünyaya bəyan edən Prezident İlham Əliyev 2019-cu ildə də bir daha dünyanın beyin mərkəzlərinin, tanınmış şirkətlərinin diqqətini Azərbaycana yönəltdi. Əminliklə deyə bilərik ki, cənab İlham Əliyevin Davos səfəri hər il olduğu kimi, 2019-cu ildə də Azərbaycana böyük dividendlər qazandıracaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# CƏNUB QAZ DƏHLİZİ



## Xəzərin “şah”ı - “Şahdəniz”

### Bu nəhəng yataq “Cənub qaz dəhlizi”nin ehtiyat mənbəyidir

“Cənub qaz dəhlizi”nin ehtiyat mənbəyi Xəzərin Azərbaycan sektorundakı “Şahdəniz” yatağıdır. “Şahdəniz” hazırda dünyada işlənməkdə olan ən nəhəng karbohidrogen yataqlarından biridir. O, sahildən təxminən 75 kilometr cənubda yerləşir və 860 kvadratkilometr ərazini əhatə edir. “Şahdəniz” 1,2 trilyon kubmetr qaz və 240 milyon tondan çox kondensat ehtiyatlarına malikdir.

*2015-ci ildə “Cənub qaz dəhlizi” Məşvərət Şurasının birinci iclası, sonrakı illərdə isə şuranın daha üç toplantısı keçirilmişdir və burada layihənin reallaşdırılması ilə bağlı mühüm qərarlar qəbul edilmişdir. Bu tədbirlərin hamısının Bakıda keçirilməsi Azərbaycanın layihəyə liderlik etməsini bir daha təsdiqləyir.*

Yatağın kəşfiyyatı, işlənməsi və Hasilatın Pay Bölgüsü Sazişi 1996-cı ilin iyun ayında imzalanıb və oktyabr ayında Milli Məclis tərəfindən ratifikasiya edilərək qüvvəyə minib. Növbəti ildə isə burada üçölçülü seysmik tədqiqatlar aparılıb. 1999-cu ilin iyun ayında birinci kəşfiyyat quyusunun qazılması tamamlanıb. Bu, “Şahdəniz”in kəşf olunduğu tarix hesab edilir. Ümumiyyətlə, 1997-2001-ci illər ərzində yataqda qazılmış kəşfiyyat və qiymətləndirmə quyuları burada dünya səviyyəli bir qaz-kondensat yatağının olduğunu təsdiqləyib.

Yatağın işlənməsinin birinci mərhələsi çərçivəsində “Şahdəniz Alfa” platformasından 12 ildən çoxdur Azərbaycana, Gürcüstana və Türkiyəyə qaz nəql edilir. Qazı Azərbaycanın və Gürcüstanın ərazisi ilə Cənubi Qafqaz Boru Kəməri daşıyır. Gürcüstan-Türkiyə sərhədində CQBK-ya birləşən borularla mavi yanacaq Ərzurumadək çatdırılır. Odur ki, Səngəçaldan Ərzurumadək uzanan bu xətt bütövlükdə Bakı-Tbilisi-Ərzurum kəməri adlanır.

“Şahdəniz”in işlənməsinin ikinci mərhələsi üçün yekun investisiya qərarı 2013-cü il dekabrın 17-də verilib. Beş ilə yaxın müddət ərzində layihə nəzərdə tutulduğu qaydada irəliləyib və artıq yarım ildən çoxdur “Şahdəniz-2” qazı genişləndirilmiş CQBK və istismara daxil olmuş TANAP vasitəsilə ixrac edilir. Başqa sözlə, 2018-ci ildən “Cənub qaz dəhlizi”nin birinci seqmenti olan “Şahdəniz-2”dən hasilata başlanıb.

Xatırladaq ki, “Şahdəniz” layihəsində iştirak payları belədir: BP (operator, 28,8 faiz), TPAO (19 faiz), AzŞD (10 faiz), “Cənub qaz dəhlizi” Apstrim (6,7 faiz), PETRONAS (15,5 faiz), “LUKoyl” (10 faiz), NIKO (10 faiz).

Keçən il mayın 29-da “Cənub qaz dəhlizi”nin Səngəçal terminalında keçirilən rəsmi açılış mərasimində Prezident İlham Əliyev “Şahdəniz”in əhəmiyyətini bir daha vurğulayaraq demişdir: “1994-cü ildən sonra ikinci böyük kontrakt “Şahdəniz” qaz yatağı üzrə imzalanmışdır... Beləliklə, Azərbaycan dünyaya özünü nəinki neft ölkəsi, həm də qaz ölkəsi kimi təqdim etdi. Onu da yaxşı xatırlayıram ki, o vaxt dünyada enerji təhlükəsizliyi məsələlərində qaz amili o qədər də ciddi rol oynamırdı. Hətta qaz yataqlarının işlənilməsi o qədər də böyük maraq doğurmurdu. Çünki mənfəət neft yataqları ilə müqayisədə daha aşağı idi. Ona görə bu layihəyə investorları cəlb etmək o qədər də asan məsələ deyildi. Ancaq bu gün, bu tarixi gündə “Cənub qaz dəhlizi”nin açılışını qeyd edərkən biz görürük ki, bu, nə qədər vaxtında atılmış və müdrik addımdır. “Şahdəniz” qaz yatağı “Cənub qaz dəhlizi”nin əsas resurs bazasıdır”.

“Şahdəniz-2”ni transformasiyaya yol açan inqilabi layihə adlandırırlar. Layihə çərçivəsində ildə 16 milyard kubmetr qaz hasil ediləcək ki, onun da 6 milyard kubmetri Türkiyədəki, 10 milyard kubmetri Avropadakı istehlakçılar üçün nəzərdə tutulub. Layihənin tikinti işlərinin pik dövründə Azərbaycanda 24 min nəfərdən çox insan işə cəlb olunub.

“Şahdəniz-2” müqavilə sahəsində iki platforma quraşdırılıb və onlar körpü vasitəsilə birləşdirilib. Bunlardan biri yaşayış blokları və texnoloji təchizat platforması, digəri hasilat və dikborular platformasıdır. Platformaların tikintisi bütövlükdə Azərbaycanda neft-qaz qurğularının inşası üçün yaradılmış dünya səviyyəli sahələrdə həyata keçirilib. Hər iki platformanın üst hissəsi Bibiheybət ərazisindəki ATA (“AMEK-Tekfen-Azfen”) tikinti-quraşdırma sahəsində inşa edilib. Qurğuların dayaq blokları Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda (BDÖZ) hazırlanıb.

İlk qazın alınması üçün qazma işlərinin vaxtında və keyfiyyətlə aparılması da mühüm şərtdir. “Şahdəniz-2”də qazma işləri “İstiqlal” və “Maersk Explorer” qurğuları ilə həyata keçirilir. Bu qurğularla “Şahdəniz-2” yatağından hasilatın başlanmasına və sonradan tədricən artırılmasına hazırlıq çərçivəsində 14 quyu qazılıb. “Şahdəniz-2”də qazma işləri hasilatın sabit səviyyəsinə nail olunanadək davam edəcək.

Bir sözlə, CQBK-nın ilk qazı qəbul etməsi üçün Azərbaycanda və Gürcüstanda xətt boyu genişləndirilmə işləri aparılıb. Kəmərə qaz Səngəçal terminalından vurulub. “Şahdəniz-2” qazını qəbul, ilkin emal və ixrac etmək üçün burada yeni qurğular tikilib. Hazırda “Şahdəniz Bravo” platformasından Səngəçala qazın ötürülməsi davam edir.

“Şahdəniz”in zəngin salnaməsinə daxil olan hadisələrdən biri də Bakı Gəmiqayırma Zavodunda məhz həmin yataqda işləmək üçün “Xankəndi” sualtı tikinti gəmisinin inşa edilməsidir. Hazırda gəmi “Şahdəniz”də uğurla fəaliyyət göstərir. Yatağa 2017-ci ildə gələn “Xankəndi” burada 10 ildən çox - 2027-ci ilədək işləyəcək.

“Xankəndi” DNV GL Norveç və Almaniya təsnifat cəmiyyətinin nəzarəti altında tikilmişdir. Bu nadir gəminin maksimal sürəti 13,5 knot, uzunluğu 155, eni 32, maksimal suya oturumu 7,5 və əsas göyərtəsinin hündürlüyü 13 metrdir. Gəmi 3,5 metr hündürlüyündə böyük dalğalarda fəaliyyət göstərməsi üçün dinamik mövqeləndirmə sisteminə malikdir. 600 metrədək sualtı əməliyyatlar aparmaq imkanı var. Sualtı tikinti gəmisinin ümumi çəkisi 17 min 700 ton, suya oturumu 6,5 metr, yükgötürmə qabiliyyəti 5 min metrik tondan artıqdır. Dünyada bu tipdə cəmi 10 gəmi var ki, onlardan biri də “Xankəndi”dir. Gəminin inşası təqribən 400 milyon dollara başa gəlmişdir.

Bundan əlavə, sualtı və dənizgəmi əməliyyatlarında STB-1 daşıma, “İsrafil Hüseynov” borudüzmə barjlarından, “Azərbaycan” kran və “Akademik Tofiq İsmayılov” dalğıc gəmilərindən də istifadə olunur.

3500 kilometrlik “Cənub qaz dəhlizi”nin ehtiyat mənbəyi məhz bura - Xəzərin Azərbaycan sektorundakı “Şahdəniz-2” müqaviləsi sahəsi, ən müasir platformaların quraşdırıldığı, “Xankəndi” kimi nəhəng gəminin işlədiyi ərazidir. Buradan sualtı xətlərlə sahilə çıxarılan mavi yanacaq Səngəçal terminalındakı qurğuların köməyi ilə Avropaya doğru uzun bir yol başlayır.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

## Azərbaycan və region layihədən nə qazanacaq

- qarşıdan gələn 100 il ərzində Azərbaycan xalqına xidmət edəcək və milli iqtisadiyyatın inkişafında mühüm faktor olacaq;
- Azərbaycanın regionda və Avropada əhəmiyyətinin artmasını, ölkəmizlə Qərb arasında münasibətlərin daha yüksək pilləyə qalxmasını şərtləndirəcək;
- Azərbaycanın təkcə ixracatçı kimi deyil, həm də tranzit ölkə kimi əhəmiyyətini artıracaq;
- Avropanın enerji təchizatının şaxələndirilməsində ciddi amilə çevriləcək;
- region ölkələrinin öz enerji resurslarını dünya bazarına çıxarmaq üçün yeni mənbə rolunu oynayacaq;
- regionun və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm əhəmiyyət daşıyacaq;
- dövlətlər və xalqlar arasında qarşılıqlı əməkdaşlığın, işgüzar əlaqələrin inkişafına töhfə verəcək;
- regionda təhlükəsizliyin və sabitliyin təmin olunmasına ciddi təsir göstərəcək;
- insanların rifahının yüksəlməsinə pozitiv təsir göstərəcək, yəni layihədə iştirak edən bütün ölkələr və şirkətlər mənfəət əldə edəcək, yeni iş yerləri yaradılacaq.

## Son ünvana az qalıb

TAP-ın Yunanıstan və Albaniya hissəsində marşrut boyunca xəndəyin 98 faizi qazılıb. Bu barədə boru kəmərinin operatoru olan TAP AG şirkəti məlumat yayıb.



Bildirilir ki, boru kəmərinin 765 kilometrlik Yunanıstan və Albaniya hissəsində marşrut boyunca xəndəyin 98 faizi qazılıb. Yəni TAP-ın Yunanıstan və Albaniya hissəsində ümumilikdə 758 kilometr uzunluğunda xəndəyin qazılması başa çatdırılıb. Layihə üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla 82,4 faizi icra edilib.

TAP Cənubi Qafqaz Boru Kəməri və TANAP-ın davamı olub, “Şahdəniz-2”dən hasil olunacaq qazı Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya çatdıracaq. Boru kəmərinin uzunluğu 878 kilometr, diametri isə 48 düymdür. TAP boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçir. TAP-la Avropaya ilk qazın verilməsi 2020-ci ilə planlaşdırılır.

Boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Kəmər buradan Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq.

## Azərbaycanın liderliyi ilə həyata keçirilən qlobal beynəlxalq layihə



- 2011-ci ildə Avropa İttifaqı ilə Azərbaycan Xəzərdən Avropaya birbaşa qaz nəql edən marşrutların yaradılmasını dəstəkləyən birgə bəyanat - strateji enerji əməkdaşlığına dair memorandum imzalamışlar. Bununla da “Cənub qaz dəhlizi” layihəsinin reallaşdırılması ilə bağlı tarixi addım atılmışdır.
- Dəyəri 40 milyard dollar həcmində qiymətləndirilən “Cənub qaz dəhlizi” 4 mühüm seqmentdən ibarətdir. Bunlar “Şahdəniz” yatağının işlənməsinin ikinci mərhələsi, genişləndirilmiş CQBK (Cənubi Qafqaz Boru Kəməri), TANAP (Transanadolu Qaz Boru Kəməri) və TAP-dır (Transadriatik Qaz Boru Kəməri).
- “Cənub qaz dəhlizi”nin icrasında yeddi ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya iştirak edir. Növbəti mərhələdə üç Balkan ölkəsi - Bosniya və Herseqovina, Xorvatiya və Monteneqronun da layihəyə qoşulacağı gözlənilir.
- “Cənub qaz dəhlizi” ilə nəql olunan təbii yanacağın 9 Avropa şirkəti tərəfindən alınması nəzərdə tutulub. Bunlar ingilis-holland “Shell” şirkəti, Bolqarıstanın “Bulgargas”, Yunanıstanın DEPA, Almaniyanın “Uniper”, Fransanın “Engie”, İtaliyanın “Hera Trading”, “Edison” və “Enel”, İsveçrənin “Axpo” şirkətləridir.
- Azərbaycan, Gürcüstan və Türkiyə arasında olan əməkdaşlıq bir sıra önəmli layihələrin gerçəkləşməsində baza rolunu oynayır.
- Digər mühüm enerji layihələrində olduğu kimi, ABŞ “Cənub qaz dəhlizi”nin reallaşmasına siyasi və mənəvi dəstək göstərmiş və hərtərəfli kömək etmişdir.

## Üç kəmərin bir dəhlizi




## CQBK - möhkəm bünövrə

*“Cənub qaz dəhlizi”ni yaradan üç kəmərdən birincisi CQBK-dır. CQBK Bakı-Tbilisi-Ərzurum boru xəttinin Azərbaycan və Gürcüstandan keçən hissəsini təşkil edir. “Cənub qaz dəhlizi”nin mühüm seqmenti kimi genişləndirildikdən sonra CQBK artıq “Şahdəniz-2” qazını da nəql edir.*

Cənubi Qafqaz Boru Kəməri Azərbaycanın 13 bölgəsindən - Abşeron, Qaradağ, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Tovuz, Şəmkir və Ağstafadan keçir. Səngəçaldan başlayaraq Azərbaycanın ərazisində 443, Gürcüstanda 248 kilometr məsafə boyu uzanır.

“Şahdəniz-2” qazı TANAP-a məhz CQBK vasitəsilə qovuşur. İndi onun iki qolu var. CQBK-nın genişləndirilməsi layihəsi də bu məqsədə xidmət edirdi. Belə ki, Hacıqabul rayonunun Muğan qəsəbəsi yaxınlığından başlayaraq mövcud kəmərlə yanaşı daha bir xətt tikilib. Buradan Gürcüstan sərhədinədək çatan yeni kəmərin uzunluğu 387 kilometrdir. Onun başlanğıcında 1 ərsinləmə, marşrutu boyunca isə 5 siyirtmə stansiyası var.

CQBK-nın Gürcüstanda aparılan genişləndirilməsinə bu ölkə ilə Türkiyənin sərhədində yeni kəmərin qısa hissəsi, həmçinin 1 ərsinləmə, 2 kompressor stansiyası, təzyiqi azaldan və ölçən stansiyaların tikintisi daxil idi. Genişləndirildikdən sonra CQBK-nın ilkin ötürücülük gücü 16 milyard kubmetrə çatıb.

Hazırda boru kəməri vasitəsilə Türkiyəyə kommersiya daşımaları həyata keçirilir. Genişləndirilmiş CQBK-nın Azərbaycan və Gürcüstan ərazisindəki qurğuları və boru kəməri hissələri ixrac qaz həcmlərini daşıyır.

## TANAP - birləşdirici halqa

*TANAP “Cənub qaz dəhlizi”nin ən böyük hissəsidir, bir tərəfdən CQBK-ya, digər tərəfdən TAP-a bağlanır. Onu “Cənub qaz dəhlizi”nin onurğa sütunu da adlandırırlar.*

Uzunluğu 1850 kilometr olan TANAP Türkiyənin 20 vilayətindən, o cümlədən Ərdəhan, Qars, Ərzurum, Gümüşhanə, Ərzincan vilayətlərindən keçir. Marşrut boyu kəmər Türkiyənin 67 rayonunu və 600 kəndini arxada qoyub Türkiyə-Yunanıstan sərhədinə çatır və oradakı Kipoi məntəqəsində TAP-a qovuşur.

TANAP üzrə Hökumətlərarası Sazişi 2012-ci ilin iyun ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyənin o vaxt baş naziri, indi isə Prezidenti olan Rəcəb Tayyib Ərdoğan İstanbulda imzalamışlar. 2014-cü ilin ortalarınadək layihələndirmə işləri, araşdırmalar tamamlanmışdır. Sonra mühəndis-layihələndirmə, təchizat-tədarük, tikinti-idarəçilik müqaviləsi imzalanmış və kəmərin detallarının layihələndirilməsinə başlanmışdır. 2015-ci il martın 17-də isə Türkiyənin Qars vilayətinin Selim rayonunda TANAP-ın təməli qoyulmuşdur. Mərasimdə Azərbaycanın, Türkiyənin və Gürcüstanın dövlət başçıları iştirak etmişlər.

Bu layihə ölkəmizin yaratdığı beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq formatını daha da təkmilləşdirmişdir. Layihədə Azərbaycanın SOCAR, Türkiyənin BOTAŞ və Böyük Britaniyanın BP şirkətləri tərəfdaşlıq edirlər.

2018-ci il iyunun 12-də Türkiyədə - Əskişəhərdə TANAP-ın istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirilmişdir. Kəmər fəaliyyət göstərdiyi qısa müddətdə artıq özünü təsdiq etmişdir. Bu boru xətti ilə “Şahdəniz-2” layihəsinin qazı ahəngdar və təhlükəsiz nəql olunur.

## TAP - sonuncu seqment

*TAP “Cənub qaz dəhlizi”nin sonuncu seqmentidir. Bu, strateji əhəmiyyətli bir layihədir, Avropanın mavi yanacağa olan tələbatını ödəyəcək və enerji təhlükəsizliyinə ciddi dəstək verəcək.*

TAP uzunluğu təxminən 878 kilometr olan boru xəttidir. Onun 550 kilometri Yunanıstanın, 210 kilometri Albaniyanın ərazisindən, 105 kilometri Adriatik dənizinin altından keçəcək və sonuncu hissəsi İtaliya torpağında quru sahəyə çıxacaq. Burada kəmər “Snam Rete Gas” şirkətinin istismar etdiyi qaz nəqliyyatı şəbəkəsinə birləşdiriləcək.

Layihədə SOCAR (20 faiz), BP (20 faiz), “Snam” (20 faiz), “Fluxys” (19 faiz), “Enagas” (16 faiz) və “Axpo” (5 faiz) şirkətləri ilə tərəfdaşlıq edir.

Ümumi dəyəri 4,5 milyard avro olan TAP kəməri ilə ilkin mərhələdə ildə 10 milyard kubmetr qazın nəqli nəzərdə tutulur. Sonrakı illərdə bu həcm artırıla da bilər.

Layihənin İtaliyada başa çatmasına baxmayaraq, təbii qazın gələcəkdə ara keçid boru kəmərləri vasitəsilə İsveçrə, Avstriya, Fransa, Almaniya, Belçika, hətta İngiltərəyə ötürüləcəyinin mümkün olacağı istisna edilmir. TAP-ın əhəmiyyəti həm də ondadır ki, Yunanıstan-Bolqarıstan İnterkonnektoru və İon-Adriatik qaz kəmərinin təchizatını asanlaşdıracaq.

TAP-ın təməli 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. Həmin vaxtdan da tikinti işlərinə başlanıb. İnşaat işləri uğurla davam edir. Kəmərin gələn il Azərbaycan qazını Avropaya çatdıracağı gözlənilir.

# REGİONLAR



# Aqroparklar ümidləri doğruldur



Ölkə rəhbəri İlham Əliyevin aqrar sektorun qarşısında qoyduğu ən mühüm vəzifələrdən biri idxaldan azad olmaqla əhalini daha bol və keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin etməkdir. Bu həm də xaricə valyuta axınının qarşısının alınması, yeni iş yerlərinin açılması, respublikada yetişdirilən müxtəlif adda məhsulların "Made in Azerbaijan" brendi ilə xarici ölkələrə ixrac edilməsi deməkdir. Artıq bu sahədə ilk uğurlar da var. Belə ki, bir neçə ölkədə Azərbaycan ticarət mərkəzləri açılmışdır və həmin mərkəzlərdə satılan məhsullar alıcılar tərəfindən rəğbətlə qarşılanır.

Dövlət başçısının kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı qarşıya qoyduğu vəzifələr Hacıqabul rayonunda da uğurla həyata keçirilir. Rayon ərazisində bir neçə aqropark tipli təsərrüfat yaradılmışdır. Onlardan biri Padar qəsəbəsindəki "Azərsun Holdinq"dir. Onun 1625 hektar torpaq sahəsi var. Burada mütərəqqi texnologiyaların tətbiqinə üstünlük verilir. Belə ki, torpaqları suvarmaq üçün 777 hektarda pivot, 75 hektarda damcı suvarma sistemi quraşdırılmış, kifayət qədər müxtəlif növ kənd təsərrüfatı texnikası, maşın və mexanizmlər alınıb gətirilmişdir. Aqroparkda inzibati bina, texnikanın saxlanması üçün talvarlar, təmir emalatxanası, işçilər üçün yeməkxana inşa edilmişdir. Yaradılan şərait, ciddi nizam-intizam nəticəsində ötən il 490 hektar sahədən 4 min 761,45 ton buğda, 791 hektar sahədən 1938 ton arpa, 117 hektar sahədən 6 min 520 ton çuğundur əldə edilmişdir. Qarğıdalı və soya əkilmiş sahələrin məhsuldarlığı da normaldır.



Aqroparkda il ərzində 20 min ton süd istehsal etmək planlaşdırılmışdır. Bunun üçün müasir tipli tövlələr tikilərək avadanlıqlarla təchiz edilmişdir. 1200 baş cins inək alınıb gətirilmiş, onlardan indiyə kimi 244 bala alınmışdır.

Rayonda yaradılmış digər aqropark "Muğan Aqro" MMC-dir. 2 min hektar ərazisi olan bu təsərrüfat Meyniman kəndindədir. Aqroparkın çoxşaxəli inkişafı ilə əlaqədar infrastruktur yaradılır, yeni işlər görülür. Bu məqsədlə iribuynuzlu heyvanlar üçün 2 tövlə, 1 yem anbarı və digər yardımçı binalar inşa olunmuşdur. Aqroparkda hələlik 1560 baş qoyun bəslənilir. Yaxın gələcəkdə onların sayı daha da artırılacaq. Təsərrüfatın əkin sahələrindən 380 ton buğda, 285 ton arpa, 2 min 440 ton yonca yığılmış, 80 hektar sahədə pambıq, 250 hektarda qarğıdalı, 20 hektarda soğan əkilib-becərilmişdir. Hər birinin əkin sahəsi 2 hektar olan 5 müasir tipli istilikxana tikilmişdir. Salınmış meyvə bağlarının ümumi sahəsi 57 hektardan 144 hektara çatdırılmışdır. Aqroparkda illik istehsal gücü 5 min ton süd olan heyvandarlıq kompleksi fəaliyyətə başlamışdır. 700 baş üçün nəzərdə tutulan kompleksdə 264 baş cins inək saxlanılır. Onların sayını artırmaq üçün tədbirlər görülür.

Rayonda yaradılan aqroparklardan biri də "Aqro Dairy" MMC-dir. Burada 1 ədəd 110 kilovoltluq 1, 35 kilovoltluq 2 yarımstansiya tikilmiş, 17 kilometrlik məsafədən su xətti çəkilmiş, 7 min hektar sahəni əhatə edən pivot suvarma sistemi quraşdırılmışdır. Yaxın gələcəkdə aqroparkın bütün əkin sahələrinin bu üsulla suvarılması nəzərdə tutulub. Aqropark üçün 4 kultivator, 2 toxumsəpən aqreqat, "CASE" markalı 26 traktor və kombayn alınmışdır. 26 min 934 hektar sahədən 25 min 829 ton buğda və 6 min 53 ton arpa götürülüb.



Rayon üçün ənənəvi olan quşçuluq da inkişaf etdirilir. Bu məqsədlə Atbulaq kəndində "AZERBROOD" MMC tərəfindən müəssisə inşa olunur. İl ərzində burada 9,6 milyon ədəd yumurta istehsal etmək planlaşdırılır. 20 hektara yaxın sahədə bəsləniləcək quşlar üçün yem bitkiləri becəriləcək.

Bu kənddə yeni yaradılan kənd təsərrüfatı təmayüllü aqroparklardan digəri isə "Hajıgabul Greenhouse" MMC-dir. Müəssisənin 17 hektarlıq ərazisinin 10 hektarında İspaniya texnologiyası əsasında istilikxana tikilərək istifadəyə verilmişdir.

Bunlarla bərabər, dövlət başçısının 25 iyul 2017-ci il tarixli sərəncamına əsasən, 20 hektar ərazidə Hacıqabul Sənaye Məhəlləsi tikilmişdir.

Qurulan bu müəssisələr məhsul bolluğunun yaradılması ilə yanaşı, həm də yüzlərlə iş yerinin açılması deməkdir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Xilmilli



Qobustan rayonunun Xilmilli kəndini daha çox məşhur edən bu yerin təbiəti, saf havası və ilk sakinləri olan malakanlardır. Kənd tam orta məktəbin tarix müəllimi Əlfi Orucov deyir ki, təxminən 200 il əvvəl bu yerlərin hamısı Qozluçay adlandırılıb: "Lakin buradan bir qədər yuxarıda yerləşən Sündü və Nabır kəndləri arasında Xilə adlanan kənd olub. Sonradan Xilənin sakinlərinin bir hissəsi daha yaxşı və rahat həyat arzusu ilə Bakının Əmircan kəndinə köç edib. Bir qismi isə aşağı kəndlərdə məskunlaşıblar. Sonradan həmin kənd dağılaraq sıradan çıxıb. Hazırkı Xilmilli toponiminin etimoloji mənasının da məhz elə "Xilə" adı ilə bağlılığı ehtimalı böyükdür".



Malakanların hazırkı Xilmilliyə gəlişləri təxminən 1835-ci ildən sonrakı dövrə aiddir. Onlar əvvəlcə Altıağaca, oradan da digər ərazilərə, o cümlədən Xilmilliyə köçüblər. İlk mərhələdə Sankt-Peterburqdan xüsusi göstərişlə gələn mütəxəssislər kəndin planını tutublar. Sonradan ilk infrastruktur yaradılıb. Bunun ardınca sakinlər yeni yaşayış məntəqələrinə köçürülüblər. Malakanların burada məskunlaşma tarixi isə 1840-cı ilə təsadüf edir. O dövrə kimi bu ərazi ətraf kənd sakinlərinin otlaq sahələri idi.

Tarixi abidələri o qədər çox olmasa da, kəndin aşağı hissəsində böyük karvansara olub. Onun XV-XVI əsrlərdə tikildiyi bildirilir. Şimal bölgələrimizə səfər edən insanlar həmin karvansarada dincəliblər.

Təxminən 1990-cı illərə qədər kənd sakinlərinin etnik tərkibində ruslar üstünlük təşkil edib. O vaxtlar kənddə fəaliyyət göstərən iki məktəbdə 650 nəfərdən çox şagird təhsil alıb. Təsərrüfatların sayı 600-dən çox olub. Hazırda isə kənddə müasir standartlara cavab verən 360 şagirdlik yeni məktəb fəaliyyət göstərir. Məktəbdə 295 nəfər şagirdin təlim-tərbiyəsi ilə 26 müəllim məşğul olur.

Lakin sonradan sakinlərin bir qismi, xüsusən də gənclər kəndi tərk edərək iri şəhərlərə, xüsusən Rusiya Federasiyasına gediblər. Buna baxmayaraq hələ də qalanlar var.

Bu gün Xilmillidə malakan və müsəlman icmaları mövcuddur. Bütün sakinlər bir-birinə qaynayıb-qarışıblar. Xeyir və şər məclislərində bir yerdə olurlar. Hətta kənd sakinlərindən malakanlarla ailə qurub oğul-uşaq sahibi olanlar var. Tolerantlığın nümunələrindən biri məhz bu kiçik kənddə müşahidə edilir. Təxminən 1991-ci ilə qədər kənd məktəbində dərslər əsasən rus dilində tədris olunurdu. Hətta burada yaşayan azərbaycanlılar da rus dilində təhsil alırdılar. Lakin sonradan kənddəki azərbaycanlıların sayı artdığından burada dərslər Azərbaycan dilində tədris olunmağa başlayıb. İndi rus uşaqları da heç bir çətinlik çəkmədən bu məktəbdə təhsil alırlar.

Maraqlı məqamlardan biri də kəndi tərk etmiş xilmillililərin doğma torpağı yaddan çıxarmamalarıdır. Hətta vaxtı ilə burada kolxoz sədri işləmiş Timofey Nikolayeviç ahıl yaşda olmasına baxmayaraq ildə bir dəfə Xilmilliyə gəlir. Səbəbini də ömrünün ən gözəl anlarının, unudulmaz xatirələrinin bu kəndə bağlı olması ilə əlaqələndirir.

Böyük Vətən müharibəsində bu kəndin iki oğlu Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Onlardan biri - Frolov bu adı 1943-cü ildə ölümündən sonra alıb. İlyasov soy adlı digər qəhrəman isə 1982-ci ildə dünyasını dəyişib.

Kəndin malakan icmasının rəhbəri Yekaterina Çaplyeva deyir ki, burada doğulub və elə ömrünün sonuna kimi də burada yaşayacaq. Hazırda pensiyaçı olsa da, zamanında kolxozda ayrı-ayrı vəzifələrdə işləyib. Yekaterina Çaplyeva kövrələrək keçmiş günləri xatırlayır: "O günlər tamamilə fərqli idi. Həyat qaynayır, insanların üzündən gələcəyə inamdan doğan sevinc, fərəh süzülürdü. Lakin SSRİ-nin dağılmasından sonra yaranan çətinlikləri bəzi insanlar həzm edə bilmədilər. Çoxları kəndi tərk etmək məcburiyyətində qaldı. İndi malakanların sayı azalsa da, yenə gələcəyə inamımız böyükdür. Azərbaycanlılarla bir ailə kimi yaşayırıq. Dövlət də qayğımıza qalır. Bütün mərasimlərimiz, milli bayramlarımız yüksək səviyyədə qeyd olunur".

Xilmilli kənd inzibatı ərazi dairəsi üzrə nümayəndə Adil Bayramov isə deyir ki, kənd 330 təsərrüfat və 2043 sakindən ibarətdir. Kəndin sərhəd daxilində olan ümumi ərazisi 18 min 280 hektardır. Rayon mərkəzindən 24 kilometr aralıda yerləşən bu ucqar kəndin əkinə yararlı torpaqlarının sahəsi 5258 hektardır. 1996-cı ildə aparılmış aqrar islahat nəticəsində kənd sakinlərinin hər birinə 3,3 hektar torpaq düşüb.

Kənd əhalisi əsasən əkinçilik və heyvandarlıqla məşğul olur. Heyvandarların müəyyən qismi köçəri həyat tərzi keçirir. Kənd təsərrüfatının inkişafına olan diqqət və qayğı nəticəsində əhali öz pay torpaqlarından səmərəli istifadə edir.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Yol infrastrukturu yenilənir







Ölkənin cəlbedici turizm məkanı olan Quba rayonu gündən-günə gözəlləşir, sürətlə inkişaf edir. Təkcə onu demək kifayətdir ki, Prezident İlham Əliyev Quba rayonuna 11 dəfə səfər etmişdir.

Dövlət başçısının ötən ilin oktyabr ayının 11-dəki səfəri də zəngin olmuşdur. Həmin gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Zərqava-Qasımqışlaq-Çayqışlaq-Xaspolad-Aspərəsti yolunun, Quba Rayon Mərkəzi Xəstəxanasının yeni binasının, "Günəş" körpələr evi-uşaq bağçasının, "ABAD Factory" istehsalat kompleksinin, "Qubaekoaqrar" MMC kənd təsərrüfatı mallarının istehsalı zavodunun açılışında iştirak etmişlər.

Səfərdən sonra Prezident İlham Əliyev Quba-Qonaqkənd avtomobil yolunun tikintisinin davam etdirilməsi, Quba şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, rayonun Alekseyevka kəndində yeni ümumtəhsil məktəbinin inşası və Susay-Xınalıq avtomobil yolunun tikintisi ilə bağlı 4 sərəncam imzalamışdır. Ölkə rəhbəri bu il yanvarın 7-də Susay-Xınalıq avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında daha bir sərəncam imzalamışdır.

Bu da təsadüfi deyil. 2007-ci ildə istifadəyə verilmiş Quba-Xınalıq avtomobil yolu təbii amillərin təsiri, qar uçqunlarının, torpaq sürüşmələri və iri qaya parçalarının tökülməsi səbəbindən tez-tez bağlanırdı. Bu da əlavə çətinliklər yaradırdı. Əhalinin alternativ yolla gediş-gəlişini təmin etmək üçün Quba-Susay avtomobil yolunun davamlı olaraq əlavə 30 kilometr uzunluğunda Susay-Xınalıq, həmçinin bu yoldan 4,8 kilometr məsafədə yerləşən Qırız kəndinə gedən avtomobil yolunun tikintisində xeyli iş görülmüşdür. Başqa sözlə, yerli əhali üçün böyük narahatlıq yaradan 23 kilometr uzunluğunda, 10 kəndi birləşdirən Hacıhüseynli-Gənclər qəsəbəsi avtomobil yolu və bu yola birləşən digər yollar təmir edilərək istifadəyə verilib. Quba-Xaçmaz avtomobil yolunun 14 kilometrlik hissəsi yenidən qurulub. Bakı-Quba avtomobil yolunun Alekseyevka kəndi ərazisindən keçən hissəsi, İdrisiqışlaq-Qasımqışlaq-Xaspolad-Zərqava-Aspərəsti-Çayqışlaq yolunun ətrafında yaşıllıq zolaqları salınıb.

Qısa müddət ərzində Quba-Qusar yolundan Alpan, Uzunmeşə, Susay kəndlərinə gedən istiqamətdə min kubmetrlərlə torpaq işləri görülüb, sərt döngələr yarılaraq hamarlanıb, yol yatağı genişləndirilib, Xucbala-Alpan yolunun müəyyən hissəsinə birinci qat asfalt döşənib.

Yol üzərində tikiləcək körpülərin, suötürücülərin yerləri hazırlanıb, borular gətirilib, Alpan çayı üzərində körpünün salınması üçün hazırlıq işlərinə başlanılıb.

Quba-Qonaqkənd avtomobil yolunun yenidən qurulması ilə bağlı hazırlıq işləri aparılır. Hazırda tikinti və yenidənqurma Qamqam və Təngəaltı istiqamətində görülür. İkizolaqlı yolun hərəkət hissəsi 7 metr olacaq.

Xırt kəndində inşası yarımçıq qalmış körpünün tikintisi davam etdirilir. Çayqovuşanda da yeni körpü inşa olunacaq.

***Akif ƏLİYEV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Avetik ÇƏLƏBYAN: "Paşinyan İlham Əliyevlə görüşmək üçün fürsət axtarırdı və görüşə qaça-qaça getdi"

*Əvvəli 1-ci səh.*

Qarşıdan gələn dövrdə də xarici işlər nazirləri səviyyəsində danışıqlar aparılması nəzərdə tutulub. Tam formatda dövlət başçıları səviyyəsində görüş, bir qayda olaraq, ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən təşkil olunur. Amma buna qədər qeyri-rəsmi görüşlərin keçrilməsi də məqbul sayılır.

Məhz bu görüşlər bir daha təsdiq edir ki, Dağlıq Qarabağ münaqişəsində tərəflər qismində Ermənistan və Azərbaycan çıxış edir. Halbuki, Paşinyan hakimiyyətə gəldiyi ilk günlərdə verdiyi bəyanatlarda bildirirdi ki, separatçılar üçüncü tərəf olaraq danışıqlarda iştirak etməlidir. Amma indiki reallıq göstərir ki, İlham Əliyevin qətiyyətli addımları bunların hamısını puça çıxardı və Paşinyan artıq Bakının şərtləri əsasında görüşlərə qatılır.

Davos Forumu çərçivəsində İlham Əliyevlə Nikol Paşinyan arasında görüş bəzi erməni politoloqlar tərəfindən böyük narahıtlıqla qarşılanıb. Məsələn, politoloq Ayk Martirosyan son zamanlar beynəlxalq tədbirlər çərçivəsində Paşinyanın İlham Əliyevlə planlaşdırılmamış görüşlərinin intensivləşməsini və müzakirələrin əsas detallarının məxfi saxlanmasını narahatlıqla qəbul edir.

Onun fikrincə, son görüşün heç də qeyri-rəsmi görüşə xas olmayan qədər uzun çəkməsi və danışıqların tam məzmununun ictimaiyyətə açıqlanmaması Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Paşinyanın Ermənistanın ziyanına hansısa qərar verməyə hazırlaşması ilə əlaqəlidir: "Çünki əvvəlki illərdən fərqli olaraq, indi Ermənistanda vəziyyətin dəyişməsi fonunda Paşinyanın bu məxfiliyi anlaşılan deyil. Əliyevlə görüşün niyə baş tutduğu anlaşılan deyil. Axı, bütün bunların Ermənistan üçün faydası nədədir? Niyə bu görüş barədə məlumat əvvəlcədən elan edilməmişdi, yaxud niyə müzakirələrin bütün məzmunu ictimaiyyətə açıqlanmır? Levon Ter-Petrosyan, Koçaryan və Serj Sarkisyan dövründəki məxfiliyin səbəbləri aydın idi. Amma indi səbəb yoxdur. Niyə şəffaflıq şəraitində bu şəffaflığın özünü görmürük? Niyə Paşinyanla Əliyevin görüşləri bu qədər intensivdir? Axı, Ermənistan tərəfi nəyə nail olmaq istəyir?".

Ermənistanın Milli Gündəm Partiyasının rəhbəri Avetik Çələbyan isə vurğulayır: "Baş nazir Nikol Paşinyan Azərbaycan Prezidenti İlham Əliyevlə görüşmək üçün fürsət axtarırdı və Davosda da bu fürsəti, görünür, tapa bildi, görüşə qaça-qaça getdi".

Onun sözlərinə görə, Paşinyanın Azərbaycan başçısı ilə görüşmək istəyi Ermənistanda maraq doğurub: "Paşinyan bu görüş barədə cəmiyyəti maraqlandıran suallara cavab verməlidir. O, İlham Əliyevlə niyə görüşmək istəyirdi? Bu, gözlənilməz görüş oldu. Davosda baş tutan görüş saat yarım davam etdi. Əlbəttə, bundan hələ bir gün əvvəl o, İlham Əliyevlə görüşmək üçün bəhanə axtarırdı". O bildirir ki, əslində Rusiya və Qərbdən gözlədiyini ala bilməyən Paşinyan özü üçün ən yaxşı çıxış yolunu Azərbaycanla barışmaqda görür.

Elə ekspertlər də vurğulayır ki, bu gün Ermənistanın yeganə xilas yolu məhz işğal siyasətini sona çatdırmaqdır. Əks təqdirdə Azərbaycanın təcrid siyasəti Ermənistanın bir dövlət olaraq tam tənəzzülü ilə nəticələnəcək. İndi Azərbaycanın, elə dünyanın da əsas gözləntiləri bundan ibarətdir ki, Ermənistanın yeni hakimiyyəti sağlam düşüncə əsasında hərəkət edib təcavüz siyasətinə son qoyacaq. Əks halda Ermənistanı yeni böyük zərbələr gözləyir.

Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan rəhbərlyinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prinsipial və ardıcıl mövqeyi bu gün artıq sözügedən münaqişə ilə əlaqədar regionda tamam yeni bir vəziyyət yaradır. Məhz bu durumda münaqişənin tezliklə Azərbaycanın istəklərinə uyğun şəkildə çözümü də tamamilə gözlənilən hal sayılır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# "AzerTelecom" Azərbaycanın Regional Rəqəmsal Mərkəzə çevrilməsi üçün "Azerbaijan Digital Hub" proqramını icra edir

Hazırda 4-cü sənaye inqilabı şəraitində dünya ölkələrində iqtisadiyyatın rəqəmsallaşması və sürətli transformasiyası prosesləri gedir. Son 25 il ərzində aparılan fəaliyyətin nəticəsi olaraq regionun enerji və nəqliyyat mərkəzinə çevrilmiş Azərbaycan da artıq 4-cü sənaye inqilabının astanasındadır və ölkəmizdə iqtisadiyyatın rəqəmsallaşması, bilik iqtisadiyyatının qurulması və innovasiyaların tətbiqi mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi və ölkəmizin tranzit potensialının gücləndirilməsi istiqamətində son illər bir sıra mühüm layihələr icra edilir. Hazırda Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkətinin törəmə şirkəti olan "AzerTelecom" Azərbaycanın regionun "Rəqəmsal Məkəz"inə çevrilməsi üçün "Azerbaijan Digital Hub" proqramının icrasına başlayıb.

## "Azerbaijan Digital Hub" proqramının əsas hədəfləri

Proqramın əsas hədəfi Azərbaycanın telekommunikasiya ekosisteminin ən qabaqcıl dünya standartları səviyyəsinə qalxması, ölkənin internetin alışında xarici ölkələrdən asılılığının minimuma endirilməsi, perspektivdə isə Azərbaycanın regionda internetin satışında mərkəzi ölkəyə çevrilərək, rəqəmsal xidmətlər idxal edən tərəfdən *"Made in Azerbaijan" brendi altında bu xidmətləri istehsal və qonşu regionlara ixrac edən ölkəyə transformasiya olunmasıdır.*

"Azerbaijan Digital Hub" proqramı çərçivəsində *Azərbaycanın gələcəkdə Qafqaz, Yaxın Şərq, Orta Asiya və Cənub Asiya ölkələrini əhatə edən böyük bir regionun Rəqəmsal Mərkəzinə çevrilməsi* bu regionlarda yaşayan 1,8 milyard əhalinin (dünya əhalisinin 1/4-i) müxtəlif rəqəmsal xidmətlərlə daha yaxşı təmin edilməsinə şərait yaradacaq. Ölkəmizin regionda internetin təkcə tranzitində deyil, həmçinin də satışında mərkəzi ölkəyə çevrilməsi isə *dünyanın internet xəritəsinə London, Frankfurt, Sofiya, İstanbul, Moskva, Amsterdam və Dubay kimi İnternet Mərkəzlərilə yanaşı, Bakının da əlavə olunması deməkdir.* Bu proqram, həmçinin Rəqəmsal Mərkəzdə dünya brendlərinin (Apple, Google, Amazon, Alibaba, Facebook, Netflix və s.) cəmləşməsinə də şərait yaradacaq.

"Azerbaijan Digital Hub" proqramı nəticəsində Azərbaycanın Regionun Rəqəmsal Mərkəzinə çevrilməsi hazırda Çin hökumətinin təşəbbüskarı olduğu "Belt and Road Initiative" layihəsində Azərbaycanın da iştirakına töhfə verəcək. "Belt and Road Initiative" layihəsi Avropa, Asiya və Afrika ölkələrində infrastruktur inkişafını, investisiya yatırımlarını özündə ehtiva edir ki, Azərbaycan da "Rəqəmsal Mərkəz" kimi "Belt and Road Intiative" qlobal layihəsinin bir hissəsinə çevrilir.

"Azerbaijan Digital Hub" proqramının reallaşması nəticəsində Şimal-Cənub, Şərq-Qərb istiqamətlərində olan böyük magistral fiber-optik şəbəkələr Azərbaycanda birləşəcək. Dünyanın qlobal tranzit magistral şəbəkələrinin Azərbaycanda kəsişməsi ilə yanaşı, Azərbaycanda bu regionun ən böyük Data Mərkəzi də qurulacaq. "AzerTelecom" artıq "Azərbaycan Dəmir Yolları" QSC ilə birgə ölkə daxilində dəmiryol xətlərinin mühafizə zolağı boyunca yeni dayanıqlı magistral fiber-optik kabel infrastrukturunun tikintisinə başlayıb və müvafiq investisiya qoyuluşları həyata keçirilib. Bu imkan verir ki, Şərq-Qərb, Şimal-Cənub istiqamətlərində olan magistral xətlərin Azərbaycanda kəsişməsi reallaşsın.

## Proqram mühüm üstünlüklərə sahibdir

"Azerbaijan Digital Hub" proqramının ölkəmiz üçün mühüm üstünlükləri var. Yuxarıda qeyd olunanlarla yanaşı, bu üstünlüklər, həmçinin ondan ibarətdir ki, d*övlət investisiyası cəlb olunmadan ölkə iqtisadiyyatının inkişafı üçün yeni imkanlar yaranacaq,* regionda rəqəmsal logistik mərkəz qurulacaq, qeyri-neft sektoruna investisiyaların cəlb edilməsinə və onun inkişafına güclü təkan verilməklə rəqəmsal iqtisadiyyata töhfə veriləcək. Proqramın icrası, həmçinin elektron xidmətlərin inkişafına və ölkənin kiber-təhlükəsizliyinin təmin edilməsinə də töhfə verəcək.

*"Azerbaijan Digital Hub" proqramı çərçivəsində rəqəmsal sahədə yeni iş yerləri yaranacaq, hər hansı intellektual beyinlərin axınının qarşısının alınması və xaricdə olan savadlı Azərbaycanlı mütəxəssislərin geri dönüşü üçün yeni imkanlar açılacaq və Azərbaycanda startapların inkişafı və onların ölkədə qalması üçün münbit bir ekosistem formalaşacaq. Proqram, həmçinin kiçik və orta sahibkarlığın inkişafına və Azərbaycanda Rəqəmsal İqtisadiyyatın inkişafına töhfə verəcək.*

***"Azərbaycan"***

# Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

## *açıq tenderə dəvət edir*

Tender 2 LOT üzrə keçirilir:

**LOT 1 ONT (1xPOTS, 4xEthernet) modem və SC UPC Fast konnektorun satın alınması**

**LOT 2 "Public Free Wi-Fi" Ictimai internet avadanlıqlarının satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**LOT 1. 150 (bir yüz əlli ) manat iştirak haqqını**

**LOT 2. 150 (bir yüz əlli ) manat iştirak haqqını**

sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bank: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**VÖEN: 9900037711**
**M/H: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər 01 mart 2019-cu il saat 17:00-dək aşağıdakı sənədləri "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*
*10. Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə 12 mart 2019-cu il saat 17:00-a qədər "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru 13 mart 2019-cu il saat 15:00-da "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs:**
**Məmmədov Faiq, tel.: (+994 12) 498-39-29**

***Tender komissiyası***

# Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Xızıda vətəndaşların müraciətlərini dinləyib

Yanvarın 24-də nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə Xızı şəhərindəki Heydər Əliyev Mərkəzində vətəndaşların müraciətlərini dinləyib.

Görüşdə Xızı ilə yanaşı, Abşeron, Qubadlı, Zəngilan, Şuşa rayonlarının və Sumqayıt şəhərinin də sakinləri iştirak ediblər. Vətəndaşların müraciətləri dinlənilib, qaldırılan məsələlərin həlli üçün nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib. Əksər müraciətlər yerindəcə öz müsbət həllini tapıb.

Müraciətlər telekommunikasiya, internet, poçt xidmətləri, yol təmir-tikintisi, yeni marşrut xəttinin açılması, marşrut qrafiklərində dəyişiklik edilməsi və işə qəbul kimi məsələləri əhatə edib. Bəzi vətəndaşlar tərəfindən qaldırılan məsələlər nazirliyin səlahiyyətlərinə aid olmadığı üçün müvafiq qurumlara ünvanlanması üzrə qeydiyyata alınıb.

***AZƏRTAC***

# Yeni "Tufan" sərhəd gözətçi gəmisi Xəzər dənizində xidməti-döyüş fəaliyyətinə başlayıb




Bu il yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin baxış keçirdiyi Dövlət Sərhəd Xidmətinin (DSX) Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində inşa edilmiş S-206 nömrəli "Tufan" tipli sərhəd gözətçi gəmisi yanvarın 23-də Xəzər dənizinə endirilib və xidməti-döyüş fəaliyyətinə başlayıb.

Xəzər dənizində sərhəd təhlükəsizliyinin təmin edilməsi, neft-qaz hasilatı və daşınması infrastrukturunun etibarlı mühafizəsinin təşkil olunması üzrə vacib vəzifələri yerinə yetirən Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin xidməti döyüş imkanlarının gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Ulu öndər Heydər Əliyevin dövlətçiliyinə hər zaman sadiq olan, Azərbaycan Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı ilə hər bir döyüş tapşırığını qürur və şərəflə yerinə yetirməyə hazır olan Azərbaycan sərhədçiləri tərəfindən yeni sərhəd-gözətçi gəmisinin xidməti-döyüş fəaliyyətinə başlaması böyük ruh yüksəkliyi ilə qarşılanıb.

# Malayziyanın yeni Kralı seçildi



Paxanq ştatının hakimi, sultan Abdulla Riayətuddin Al-Mustafa Billah Malayziyanın XVI Kralı seçilmişdir. Seçkilər paytaxt Kuala-Lumpurda 13 ştatdan 9-nun sultanlarının daxil olduğu Malayziya Hakimləri Şurasının konfransında keçirilmişdir.

Kral səlahiyyətlərini beş il ərzində icra edəcək. Monarx qanunların qəbul olunmasında iştirak edir, lakin parlamentin və hökumətin rəylərini nəzərə almalıdır.

Malayziyanın əvvəlki ali hökmdarı V Məhəmməd yanvarın 6-da taxt-tacdan imtina etmişdir. Bu, krallığın tarixində ilk hadisədir. Hökmdar bu addımının motivlərini açıqlamamışdır. 2016-cı ildə seçkilərdə qalib gəlmiş V Məhəmməd 2021-ci ildə vəzifəsini tərk etməli idi.

# Venesuela ABŞ-la diplomatik münasibətləri kəsdi



Venesuela Prezidenti Nikolas Maduro ABŞ-la diplomatik və siyasi münasibətlərin kəsildiyini elan etmişdir. Bu barədə yerli televiziya xəbər verir.

Bununla əlaqədar Maduro Amerika diplomatlarına Venesuela ərazisini tərk etmək üçün 72 saat vaxt vermişdir. Prezident çıxışında Vaşinqtonu Venesuelada hakimiyyəti devirmək cəhdində ittiham etmişdir: "Mən ABŞ-la diplomatik və siyasi münasibətləri kəsmək barədə qərar qəbul etdim. Onlar qeyri-konstitusion üsullardan istifadə edərək respublikamızın yeni prezidentinin seçilməsinə nail olmaq istəyirlər".

Bu bəyanatdan əvvəl Venesuela müxalifətinin lideri Xuan Quaido özünü ölkənin müvəqqəti prezidenti elan etmişdir. ABŞ və bir sıra başqa ölkələr onu Venesuelanın qanuni lideri kimi tanımışdır.

Bu arada Vaşinqton Venesuela Prezidenti Nikolas Maduronun ultimatumunu yerinə yetirməkdən boyun qaçırmışdır. Dövlət katibi Mayk Pompeo demişdir ki, ABŞ Maduro rejimini Venesuela hökuməti kimi tanımır.

# Amerikalıların yarıdan çoxu "şatdaun"a görə Trampı qınayır

ABŞ vətəndaşlarının yarıdan çoxu hesab edir ki, dövlət orqanlarının bir qisminin işinin dayandırılmasına ("şatdaun") görə məsuliyyətin xeyli hissəsi Prezident Donald Trampın üzərinə düşür. AP-NORC şirkətinin keçirdiyi rəy sorğusu buna dəlalət edir.

Respondentlərin 60 faizi "şatdaun"a görə Trampı qınamış, 36 faiz respublikaçıların, 31 faiz demokratların məsuliyyət daşıdığını bildirmişdir. Sorğuda iştirak edənlərin 65 faizi "şatdaun"u ciddi problem hesab edir, 26 faizi isə bunun cüzi çətinlik olduğunu güman edir. Eyni zamanda amerikalıların 49 faizi Meksika ilə sərhəddə divar inşasına tərəfdar çıxır. Respondentlərin 36 faizi isə tikintinin əleyhinədir. Xatırladaq ki, ABŞ-da "şatdaun" dekabrın 22-də başlamışdır. O vaxt Konqres və Tramp Meksika ilə sərhəddə divar inşasının maliyyələşdirilməsi məsələsində fikir ayrılığı ilə əlaqədar bir sıra dövlət orqanlarının maliyyələşdirilməsi barədə qanun layihələrini razılaşdıra bilməmişdilər.

Tramp divarın tikintisinə 5,7 milyard dollar ayırmağı tələb edir. Demokratlar isə bu xərcləri faydasız sayırlar. Hər iki tərəf "şatdaun"da günahını boynuna almır və dövlət orqanlarının işinin bərpa olunması üçün danışıqlara başlaya bilmir.

# "Bakı Metropoliteni" QSC-də deratizasiya, dezinfeksiya və dezinseksiya işlərinə dair xidmətin göstərilməsinin satın alınması üzrə

## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan, (əlaqələndirici şəxs: İlqar Qasımov telefon: 490-00-91) ala bilərlər.

**LOT-1. "Bakı Metropoliteni" QSC-də deratizasiya, dezinfeksiya və dezinseksiya işlərinə dair xidmətin göstərilməsi**
**iştirak haqqı - 200 manat**
**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN):**
**AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR-TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **26 fevral 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **06 mart 2019-cu il saat 17:00-a** qədər, Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **07 mart 2019-cu il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 25.01.2019-cu il tarixdə keçirilməsi nəzərdə tutulan **"Bakı Metropoliteni" QSC-nin Bənövşəyi xəttinin "B-03" stansiyasının vestibüllərində quraşdırılması nəzərdə tutulan ANM turniketlərinin alınması və quraşdırma işlərinin satın alınması** üzrə açıq tenderdə iddiaçıların sayı 3 (üç)-dən az olduğundan tender baş tutmamış hesab olunmuş və davamından imtina edilmişdir.

***Tender komissiyası***

## Düzəliş

"Bakı Telefon Rabitəsi" MMC-nin "Azərbaycan" qəzetinin 15 yanvar tarixli sayında dərc olunmuş tender elanlarında "4. Tender təklifi dəyərinin 1 faizi…" kimi oxunmalıdır.

*Tender komissiyası*

## Düzəliş

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının "Azərbaycan" qəzetinin 24 yanvar tarixli sayında dərc olunmuş açıq tender elanında təqdim olunan sənədlər siyahısında 4-cü sətir tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı, sənədlərin qəbulu 26 fevral 2019-cu il; 6 mart 2019-cu il və zərflərin açılışı tarixi 7 mart 2019-cu il kimi oxunmalıdır. *Tender komissiyası*

## “Azərsu” ASC daxili vəsaiti hesabına “Birləşmiş Sukanal” MMC-nin 6 saylı Regional Sukanal İdarəsinə ofis avadanlıqlarının satın alınması məqsədilə

### *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Bakı şəhəri, Moskva prospekti, 67, “Azərsu” ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinin Satınalmaların təşkili şöbəsinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, telefon: 431 47 67/2288) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 31 yanvar 2019-cu il saat 15:00-dan gec olmamaq şərti ilə Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri “Azərsu” ASC-nin Bakı şəhəri, Moskva prospekti, 67 nömrəli ünvanda 01 fevral 2019-cu il saat 15:00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərbaycan İnvestisiya Şirkəti” ASC-nin investisiya obyektinin aktivlərinin bazar qiymətinin müəyyənləşdirilməsi üzrə qiymətləndirmə xidmətinin satın alınması məqsədilə keçirdiyi kotirovka sorğusu başa çatıb.

Tender komissiyasının 27.12.2018-ci il tarixli qərarı ilə “Baker Tilly Audit Azərbaycan” MMC kotirovka sorğusunun qalibi seçilib.

Qalib şirkətlə 23.01.2019-cu il tarixdə satınalma müqaviləsi imzalanıb.

***Tender komissiyası***

Təkrar

## Gədəbəy Rayon İcra Hakimiyyəti 2019-cu il ərzində Gədəbəy şəhərində şəhərdaxili küçələrin, dalanların və meydanların asfaltlaşdırılması, şəhərdaxili küçə, meydan və parkların abadlaşdırılmasına dair görüləcək işlər ilə əlaqədar

### *açıq tender elan edir*

**LOT 1 - Şəhərdaxili küçələrin, dalanların və meydanların asfaltlaşdırılması**

**LOT 2 - Şəhərdaxili küçə, meydan və parkların abadlaşdırılması**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOTlar üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Gədəbəy şəhəri, M.C.Paşayev küçəsi-3 (əlaqələndirici şəxs: Nizami Piriyev, telefon: (02232) 6-01-47) ünvanından ala bilərlər.

**İştirak haqqı**
**LOT 1 - 120 manat**
**LOT 2 - 120 manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.

| | |
|---|---|
| **Təşkilat** | **Gədəbəy Rayon İcra Hakimiyyəti** |
| **VÖEN** | **5900076651** |
| **Fond** | **7Y** |
| **XHK** | **(004240)2513931** |
| **Büdcə təsnifatının kodu** | **142340** |
| **Hesab nömrəsi** | **AZ67CTRE00000000000002513931** |
| **Bank** | **Dövlət Xəzinədarlığı Agentliyi** |
| **VÖEN** | **1401555071** |
| **Kodu** | **210005** |
| **Müxbir hesabı** | **AZ41NABZ01360100000000003944** |
| **SWIFT** | **BİKCTREAZ22** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
4. *Tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
9. *İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
10. *Digər sənədlər: İddiaçının son bir ildə analoji işlər üzrə təcrübəsi və potensialı haqqında məlumat, maddi-texniki bazası, o cümlədən maşın, mexanizm və digər texnikaların mövcudluğu haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 13.02.2019-cu il saat 17:00-dək, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 21.02.2019-cu il saat 17:00-dək Gədəbəy şəhəri, M.C.Paşayev küçəsi-3 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 22.02.2019-cu il saat 10:00-da Gədəbəy Rayon İcra Hakimiyyətinin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti

### *açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçiriləcəkdir.**

**LOT-1:** Mətbəə məhsullarının hazırlanması və çapı işlərinin satın alınması

Tender iştirakçıları “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq yuxarıda göstərilən LOT üzrə öz tender təkliflərini möhürlənmiş, imzalanmış və ikiqat bağlamada yazılı surətdə təqdim etməlidirlər.

**Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:**

*- aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, iddiaçının bu sahədə səriştəsi, maliyyə vəziyyəti.*

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Görüləcək işlər satınalma müqaviləsinin qüvvəyə mindiyi gündən 12 iş günü ərzində icra edilməli və hazır məhsul satınalan təşkilata Bakı şəhəri, H.Zərdabi pr. 88A ünvanda təhvil verilməlidir.

Tenderlə əlaqədar məlumat almaq üçün maraqlananlar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Xəlilli Elçin Hüseyn oğlu,**
**tel/faks: 497-79-66**
**Ünvan: AZ 1012, Bakı şəhəri, H.Zərdabi pr. 88A**

**Maraqlananlar Azərbaycan dilində tərtib edilmiş əsas şərtlər toplusunu LOT-1 üzrə 250 manat məbləğində iştirak haqqını ödədikdən sonra yuxarıda göstərilən ünvandan ala bilərlər.**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba ödəməlidirlər:

***Təşkilatın adı: İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti***

**VÖEN: 1302126941**
**Bank rekvizitləri: Dövlət Xəzinədarlıq Agentliyi**
**H/H: AZ80CTRE00000000000002788401**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Büdcə səviyyəsinin kodu: 7**
**Büdcə təsnifatının kodu: 142340**

Tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmır. Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır);*
- *iddiaçıların son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **28 fevral 2019-cu il saat 18:00-dək,** tender təklifi və bank təminatını isə möhürlənmiş və ikiqat zərfdə **11 mart 2019-cu il saat 18:00-dək** İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təkliflər **12 mart 2019-cu il saat 10:00-da** Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətində (ünvan: AZ 1012, Bakı şəhəri, H.Zərdabi pr. 88A) açılacaqdır.

Təklif zərflərinin açılışında iddiaçıların səlahiyyətli nümayəndələri də iştirak edə bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

***Tender komissiyası***

## “Bakı Metropoliteni” QSC Kontaktorların satın alınması üzrə

### *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan (əlaqələndirici şəxs: İlqar Qasımov, telefon: 490-00-91) ala bilərlər.

**LOT-1 Kontaktorların satın alınması**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**İştirak haqqı 1 LOT üzrə - 100 manat**

| | |
|---|---|
| **Hesab:** | **AZ98AZRT38050019440010268002** |
| **VÖEN** | **1402871431** |
| **Bank:** | **AZƏR-TÜRK BANK ASC (Mərkəz filialı)** |
| **Kodu:** | **501361** |
| **VÖEN:** | **9900006111** |
| **M/H:** | **AZ02NABZ01350100000000022944** |
| **SWIFT:** | **AZRTAZ22** |

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barəsində bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı gündən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *iddiaçının son bir il ərzindəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir il ərzindəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının sürəti;*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanı tərəfindən arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (Tender təklifi və bank zəmanəti istisna olmaqla) 26 fevral 2019-cu il saat 18:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş, ikiqat zərfdə 06 mart 2019-cu il saat 17:00-a qədər Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına “İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri” şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 07 mart 2019-cu il saat 15:30-da “Bakı Metropoliteni” QSC-nin akt zalında, Tender komissiyasının iclasında, Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri Tender komissiyasının iclasında iştirak edə bilərlər.

***Tender komissiyası***

## Holcim (Azərbaycan) ASC səhmdarlarının nəzərinə

Holcim (Azərbaycan) Açıq Səhmdar Cəmiyyəti Səhmdarlarının İllik Ümumi Yığıncağı 2019-cu il aprel ayının 24-də səhər saat 10:00-da Bakı şəhəri, AZ 1065, İzmir küçəsi, 1033 ünvanında yerləşən “Hyatt Regency” Hotelin Görüş və Konfrans Mərkəzində yerləşən Quba zalında keçiriləcəkdir.

**Holcim (Azərbaycan) Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının 24 aprel 2019-cu il tarixində keçiriləcək səhmdarların İllik Ümumi Yığıncağının gündəliyi:**

1. Holcim (Azərbaycan) Açıq Səhmdar Cəmiyyəti Səhmdarlarının İllik Ümumi Yığıncağının sədrinin seçilməsi.
2. Müşahidə Şurasının üzvlüyündə dəyişikliklərin təsdiq edilməsi.
3. Təftiş Komissiyasında dəyişikliklərin təsdiq edilməsi.
4. Holcim (Azərbaycan) Açıq Səhmdar Cəmiyyətinin 2018-ci ilin maliyyə nəticələrinə dair illik hesabatının təsdiq edilməsi.

## Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Şavarşavan kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Quşçu Ayrım kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Mərzili, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı Əsabil Qasımova oğlu

**ELÇİN QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatları Hadi Rəcəbli və Hüseynbala Mirələmov deputat həmkarları Əsabil Qasımova oğlu

**ELÇİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı və komitənin üzvləri Milli Məclisin deputatı Əsabil Qasımova oğlu

**ELÇİN QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatları, Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov və Şəmsəddin Hacıyev Milli Məclisin deputatı Əsabil Qasımova oğlu

**ELÇİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitənin üzvləri Milli Məclisin deputatı Əsabil Qasımova oğlu

**ELÇİN QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclis Aparatı Ümumi şöbəsinin əməkdaşları Milli Məclisin deputatı Əsabil Qasımova oğlu

**ELÇİN QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı Əsabil Qasımova oğlu

**ELÇİN QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Milli Məclisin deputatı Əsabil Qasımova əzizi

**ELÇİN QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Xanlar Fətiyev və Təlatüm Quliyev Milli Məclisin deputatı Əsabil Qasımova oğlu

**ELÇİN QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Akademik Asəf Hacıyev Milli Məclisin deputatı Əsabil Qasımova oğlu

**ELÇİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Aydın Əliyev Milli Məclisin deputatı Əsabil Qasımova oğlu

**ELÇİN QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Mühəndislik Universitetinin rektoru, professor Havar Məmmədov ailəsi ilə birlikdə Milli Məclisin deputatı Əsabil Qasımova oğlu

**ELÇİN QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov və komitənin üzvləri Eldar Quliyev, Tahir Süleymanov, Mahir Aslanov, İqbal Məmmədov, Novruzəli Aslanov, Hüseynbala Mirələmov, Elçin Quliyev, Eldəniz Səlimov, Cavanşir Paşazadə və Aydın Hüseynov Milli Məclisin deputatı Əsabil Qasımova oğlu

**ELÇİN QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“GİLAN HOLDİNQ”in kollektivi baş direktor Cəmil Muradova əzizi

**ƏLİ ƏBÜLFƏZ OĞLU TANRIVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mahmud Məmmədov və “GünayBank” ASC-nin kollektivi Milli Məclisin deputatı Əsabil Qasımova oğlu

**ELÇİN QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Mətanət A” şirkətinin rəhbəri Elxan Bəşirov və şirkətin kollektivi Milli Məclisin deputatı Əsabil Qasımova oğlu

**ELÇİN QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“GREEN FACTORY” MMC şirkətinin kollektivi

**ELÇİN ƏSABİL OĞLU QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8272
Sifariş 205
Qiyməti 40 qəpik